

**Volkan Aydemir: Azərbaycan Prezidenti bütün dünya ictimaiyyətinə zəmanəsini qabaqlayan lider olduğunu bir daha göstərdi**

2

# Zəfərlərlə dolu Azərbaycan



6

# Olimpiya Hərəkatı!

*Azərbaycanda Olimpiya Hərəkatının inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 1997-ci ildən Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev Sədr seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı vüsət almağa başladı.*

Səs

№ 232 (6432) 18 dekabr 2021-ci il. Qiymıti 40 qəpik

# Əmək haqlarının artırılması əhalinin sosial vəziyyətinə necə təsir edəcək?



4

*Ölkəmizdə vətəndaş rifahının təminatı istiqamətində islahatların növbəti mərhələsinə artıq start verildi. Prezident İlham Əliyevin bu gün imzaladığı yeni Sərəncamla minimum aylıq əməkhaqqının məbləği artırılaraq 250 manatdan 300 manata çatdırılıb. Sərəncam 1 yanvar 2022-ci ildən tətbiq ediləcək. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin maaşlarının minimum məbləğləri də bu Sərəncama uyğunlaşdırılacaq. Minimum əməkhaqqının artımı vahid tarif cədvəlinin (VTC) bütün...*

## "Sistemləşmədən sonra jurnalistlərə daha çox güzəştlə bağlı layihələrlə çıxış edə bilərik"

"Media haqqında" qanun layihəsi jurnalistlər və media subyektləri üçün güzəşt və imtiyazların tətbiq olunmasını nəzərdə tutur. "İki sahil" xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov Milli Məclisin İnsan hüquqları...



6



## "Əmək haqlarının artırılması əhalinin sosial rifahını yaxşılaşdıracaq"

"Prezident İlham Əliyevin sərncamı ilə 2022-ci ilin yanvarın 1-dən ölkəmizdə minimum əmək haqqının 300 manata çatdırılması, həm də vahid tarif cədvəli üzrə işləyənlərin əmək...

## Medianın inkişafına təkan verəcək növbəti qanun

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi və təşəbbüsü ilə ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatın bütün sahələrində islahatlar gedir. Və bu gün mətbuat sahəsində geniş islahatlara başlanılması və bu islahatların davamı olaraq "Media haqqında" qanun layihəsinin hazırlanıb, geniş müzakirəyə çıxarılması bir daha dövlətin medianın inkişafına göstərdiyi diqqət və qayğısının göstəricisidir.



12

## İnsanlar niyə sosial mediadan asılıdır?

16



*"Sosial media günümüzün reallığıdır. Artıq ondan qurtuluş yoxdur". Bu sözləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət bildirib. Onun sözlərinə görə, üstəlik də təəssüflə qeyd etməliyik ki, bu, insanlar arasında aslılığa çevrilib: "Əslində isə bu asılılıq da təsadüfi deyil.*

## Əli Kərimli və Avropanın potensial "siyasi mühacirləri"




Görünür, radikal müxalifətin, xüsusilə AXCP-nin pulqabısı boşalıb və bundan məlumatlı olan Qərbin məlum dairələri dərhal Azərbaycana qarşı təzyiq vasitələrini...




## Beynəlxalq ictimaiyyət Azərbaycanın "peyvənd millətçiliyi"nə qarşı təşəbbüslərini dəstəkləyir

7

Beynəlxalq ictimaiyyət Azərbaycan Prezidenti İlham Əliyevin COVİD-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizəsini...



## Azərbaycanda övladlığa götürmə qaydası dəyişir

16

*Azərbaycanda övladlığa götürmə qaydasına dəyişiklik təklif edilir.*

# Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir

## Prezident İlham Əliyev Rusiya Federasiyasının Baş nazirinin müavinini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Ticarət dövriyyəsinin artdığı xüsusi qeyd olundu. İqtisadi əməkdaşlığın daha da genişlənməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Soçi görüşü məmnunluqla xatırlandı.

Aleksey Overçukun səfərinin iqtisadi sahədə əməkdaşlıq üzrə ilin yekunlarının müzakirəsi üçün yaxşı imkan yaratdığı vurğulandı. Söhbət zamanı Rusiya-Azərbaycan-Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli komissiyanın fəaliyyətinə toxunuldu, kommunikasiyaların açılması və digər məsələlər müzakirə olundu. Görüşdə Azərbaycanla Rusiya arasında əlaqələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Volkan Aydemir: Azərbaycan Prezidenti bütün dünya ictimaiyyətinə zəmanəsini qabaqlayan lider olduğunu bir daha göstərdi

***Brüsseldə keçirilən görüşlərdən sonra etdiyi açıqlama ilə Azərbaycan Prezidenti İlham Əliyev bizə və bütün dünya ictimaiyyətinə zəmanəsini çox qabaqlayan lider olduğunu bir daha göstərdi. Azərbaycan Prezidenti verdiyi açıqlamalarda bölgədə sülhün bərqərar olmasının regionun inkişafına əhəmiyyətli təsir edəcəyini vurğulayıb. Prezident İlham Əliyevin çıxışında toxunduğu investisiya layihələri, açılacaq kommersiya-nəqliyyat marşrutları kimi bir çox mövzular, ilk növbədə region ölkələrinin inkişafına töhfə verəcək başlıca amillərdir.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin "Kocaeli Derince" Azərbaycan Evi dərnəyinin rəhbəri Volkan Aydemir bildirib.

Azərbaycan Prezidentinin Brüssel səfərinə qalib tərəf olaraq qatılmasının əhəmiyyətini vurğulayan V.Aydemir deyib: "Azərbaycan qalib tərəf olmasına baxmayaraq hər zamankı kimi humanist çıxışları ilə seçildi. Azərbaycanın tutduğu diplomatik yoldan dönməməsi, verilən sözləri tutması isə yalnız Avropa İttifaqı ölkələri üçün deyil bütün dünyada etibarlı tərəfdaş olduğunun nümayişidir. Hər zaman sülh tərəfdarı olan Azərbaycan Cənubi Qafqaza iqtisadi və sosial sülhü gətirməyə çalışan uzaqgörən lideri ilə eyni tutumunu göstərdi. Daima quruculuq siyasəti ilə seçilən Azərbaycan Vətən müharibəsindən sonra da humanist siyasi xətti davam etdirməkdir. Prezident İlham Əliyevin Zəngəzur və Laçın dəhlizləri ilə bağlı fikirləri isə çox məntiqli olduğu qədər, həm də uzun illər davam edən qarşıdurmadan sonra bölgədə insanların sülh içində yaşamağa yenidən alışmasının ən gözəl üsuludur. Ümid edirəm ki, bu səfərdən sonra erməni tərəfi nəhayət ağlı ilə hərəkət edərək Azərbaycan Prezidentinin dünya mətbuatı qarşısında təkrarladığı "3+3" formatı və regional sülh çağırışına müsbət cavab verəcək".

# Almaniya xəbər agentliyi: Avropa İttifaqı Ermənistana və Azərbaycana dəstək vəd edir


finanzen.net

WKN/ISIN oder Name

BRÜSSEL (dpa-AFX) - Die EU hat bei einem Spitzentreffen in Brüssel den verfeindeten Südkaukasusrepubliken Armenien und Aserbaidschan in ihrem Konflikt um die Region Berg-Karabach Unterstützung zugesichert. Der armenische Regierungschef Nikol Paschinjan und der aserbaidschanische Präsident Ilham Aliyev erhielten bei einem gemeinsamen Gespräch Zusagen, dass die EU etwa bei der Minenräumung in der Region sowie den von dem Konflikt betroffenen Menschen helfe. Eine Expertengruppe der EU solle außerdem bei Problemen der Grenzziehung technische Unterstützung leisten, hieß es.

Geplant ist auch eine Wiederherstellung der Eisenbahnverbindung zwischen beiden Ländern. Ziele seien vertrauensbildende Schritte und ein haltbarer Frieden in der Region, sagte EU-Ratspräsident Charles Michel, der Aliyev und Paschinjan am späten Dienstagabend zusammengebracht hatte. Aliyev und Paschinjan hielten sich auch am Mittwoch zum Gipfel der Östlichen Partnerschaft in Brüssel auf.

Zuvor hatten sich die beiden Politiker stets auf Vermittlung des russischen Präsidenten Wladimir Putin getroffen. Putin hatte im Krieg zwischen den Ex-Sowjetrepubliken 2020 einen Waffenstillstand ausgehandelt. Zu Russlands Rolle bei der Konfliktlösung gab es in Michels

***Almaniyanın "dpa" xəbər agentliyi tərəfindən "Avropa İttifaqı Ermənistana və Azərbaycana dəstək vəd edir" sərlövhəli məqalə dərc olunub.***

AZƏRTAC xəbər verir ki, məqalədə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan ilə keçirilən yüksəksəviyyəli görüşdə Avropa İttifaqının Cənubi Qafqaz respublikaları olan Ermənistana və Azərbaycana Qarabağla bağlı məsələdə dəstək verəcəyi bildirilib. Həmçinin Aİ tərəfindən regionda minaların təmizlənməsi prosesində bu ölkələrə yardım ediləcəyi, habelə münaqişədən zərər çəkmiş insanlara kömək göstəriləcəyi diqqətə çatdırılıb. Bundan əlavə, Aİ-nin təsis edəcəyi ekspertlər qrupunun sərhədlərin müəyyən olunması ilə bağlı problemlərə texniki dəstək göstərməsi nəzərdə tutulub.

Məqalədə qeyd olunur ki, Azərbaycanla Ermənistan arasında dəmir yolu əlaqəsinin bərpası da planlaşdırılır. Vurğulanır ki, Aİ Şurasının Prezidenti Şarl Mişel Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan ilə keçirdiyi görüşdə əsas məqsədin etimadın yaradılması istiqamətində atılacaq addımlar və regionda davamlı sülhün əldə edilməsi olduğunu bildirib.

Yazıda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldə keçirilmiş görüşdən əvvəl ötən ayın sonlarında Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Soçidə bir araya gəldikləri vurğulanır.

Həmçinin qeyd olunub ki, ötən ilin payızında baş verən müharibə nəticəsində Azərbaycan Qarabağı azad edib.

# Zəfərlərlə dolu Azərbaycan Olimpiya Hərəkatı!

***Azərbaycanda Olimpiya Hərəkatının inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 1997-ci ildən Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev Sədr seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı vüsət almağa başladı. Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) onlayn formatda keçirilən VIII hesabat-seçki Baş Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti seçilib. Prezident İlham Əliyev çıxışlarının birində belə deyib: "1997-ci ildə Azərbaycan idman ictimaiyyəti bu etimadı mənə göstərib. Hesab edirəm ki, mən bu şərəfli missiyanı bu günə qədər icra edirəm. Baxmayaraq ki, o vaxtdan altı il sonra mən ölkə Prezidenti seçilmişəm. Əlbəttə ki, mənim məsuliyyətim böyük dərəcədə artıb. Ancaq Milli Olimpiya Komitəsinin prezidenti kimi mən çalışıram ki, idmanın inkişafı ilə bağlı bütün məsələlərə diqqət yetirim".***



*İlham Əliyevin yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi yeni-yeni uğurlar üçün böyük stimul olacaq*

Cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinə Sədrlik etdiyi bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngiməmdi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək oldu. Belə ki, Ulu Öndər tərəfindən Atlanta Oyunlarına hazırlıq haqqında sərəncamın imzalanması, hazırlığın daim dövlət nəzarəti altında saxlanması, idmançılara dövlət tərəfindən diqqət və qayğının gücləndirilməsi öz bəhrəsini vermiş oldu. Azərbaycan Atlantada 23 idmançı ilə təmsil olundu, bir gümüş medal qazanıldı. Azərbaycan Olimpiya ölkəsinə çevrildi. Həmin zamandan Azərbaycanda idman və olimpiya hərəkatının inkişafında da böyük canlanma diqqətdən yayınmayıb. 1998-ci ildə respublikamız ilk dəfə Qış Olimpiya oyunlarında iştirak edib. Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya oyunlarında respublikamız 5 nəfər idmançı ilə dörd yarışda təmsil olunub. 2000-ci ildə Sidney Olimpiyadasında Azərbaycan idmançıları 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan komanda hesabına 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü oldu. Bu ölkənin Olimpiya hərəkatı tarixində ən böyük uğuru idi.

Qısa bir müddətdə Milli Olimpiya Komitəsinin 1998-ci ildən başlayaraq, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq standartlara cavab verən müasir idman qurğularının yaradılması istiqamətində apardığı layihələrin artıq ilk nümunələri tamamlanaraq idman ictimaiyyətinə təqdim edildi. Bakıda ilk Olimpiya Kompleksi və Milli Olimpiya Komitəsinin yeni inzibatı binası istifadəyə verildi. Yeni idman qurğularının tikintisi nəinki paytaxtda, eləcə də ölkəmizin bütün regionlarında geniş vüsət aldı. Bu layihələr ölkədə idmanın kütləviliyinin artırılması, regional səviyyəli yarışların keçirilməsində paytaxtdan kənarda məşğul olan gənc idmançıların müasir idman qurğularından istifadədən zövq alması üçün gözəl imkanlar yaradır.2002-ci ildə Azərbaycan ikinci dəfə Qış Olimpiya Oyunlarının iştirakçısı oldu. ABŞ-ın Soit Leyk siti şəhərində keçirilən bu oyunlarda idmançılarımız 3 yarışda iştirak etdilər. 2004-cü ilin avqustunda Afinada keçirilən Olimpiya Oyunlarında, idman tariximizdə ilk dəfə olaraq, 5 medal qazandı. Çində keçirilən Yeniyetmələrin Olimpiya Oyunlarında Azərbaycanın gənc atletləri beşi qızıl olmaqla 12 medal qazanaraq, 200-ə yaxın iştirakçı arasında 10-cu yeri tutmuşdur. Bütün bunlar Cənab İlham Əliyevin təşkilatçılıq fəaliyyətinin uğurlu nəticələridir.

Prezident Cənab İlham Əliyevin həm ölkə idmanına, həm də ümumiyyətlə beynəlxalq Olimpiya Hərəkatının inkişafı üçün verdiyi töhfələr diqqətdən yayınmır. 2004-cü ilin aprel ayında Beynəlxalq Olimpiya Komitəsi Azərbaycan Prezidenti İlham Əliyevə Olimpiya Hərəkatında göstərdiyi görkəmli xidmətlərinə görə təşkilatın ən yüksək mükafatını - "Olimpiya Ordeni"ni təqdim edir. Bu, Cənab Prezidentin böyük səylərinin yüksək səmərə verdiyinin, ölkəmizin nəzərəçarpan nailiyyətlər əldə etdiyinin beynəlxalq təşkilatlar tərəfindən tanınması deməkdir.

### "İDMAN DOSTLUĞU MÖHKƏMLƏNDİRƏN, XALQLARARASI MÜNASİBƏTLƏRİ GÜCLƏNDİRƏN ÖNƏMLİ BİR AMİLDİR"

Artıq MOK beynəlxalq miqyasda böyük nüfuz qazanıb, fəaliyyəti və əldə etdiyi nailiyyətlərlə seçilib. Yeni idman qurğularının ölkəmizdə olması beynəlxalq səviyyəli yarışların təşkili üçün də lazımı şəraiti təmin edir. Odur ki, 1999-cu ildən başlayaraq, beynəlxalq idman tədbirlərini ölkəmizdə təşkil etmək bir ənənə halını almışdır. Ötən dövr ərzində Azərbaycanda təşkil edilmiş beynəlxalq səviyyəli yarışların sayı artıq yüzlərlə ölçülür və ilbəil artır. Azərbaycanda keçirilən Avropa və dünya çempionatları da buna nümunədir. Belə ki, müxtəlif beynəlxalq yarışlar, bədii gimnastika, taekvando, güləş, boks, karate və s. bu kimi Olimpiya növlərinə daxil olan idman yarışları, məhz Azərbaycanda keçirilib. Əlbəttə ki, son illərdə Azərbaycanın dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilməsi də buna imkan yaradıb. Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb.

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də elə ölkəmizə Avropa Olimpiya Komitəsinin inamı idi. Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilməsi, ilk oyunların Bakıda keçirilməsi böyük nailiyyət idi. Bu cür oyunları ilk dəfə təşkil etmək Azərbaycan üçün şərəfli olduğu qədər də məsuliyyətlidir. İlk Avropa Oyunlarında 49 ölkədən 6000-dən artıq atlet idmanın 20 növündə mübarizə apardı. Yarışlar Bakıda 21 idman obyektində keçirildi. Təbii ki, bütün bunlarla yanaşı, Azərbaycan 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, Bədii Gimnastika üzrə Dünya Kuboku, "Formula-1" kimi mötəbər yarışlara uğurla ev sahibliyi etdi və özünü dünyada idman ölkəsi olaraq tanıda bildi. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu. Azərbaycan 75 qızıl medalla birinci yeri qazandı. İdman arenalarında Azərbaycanın Dövlət Himninin 75 dəfə səslənməsi, təbii ki, böyük qürurdur. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Bu Oyunların keçirilməsi həm ölkəmizin potensialını, həm bizim siyasətimizi, həm də imkanlarımızı göstərir. Çünki bu Oyunlar, sadəcə olaraq, idman yarışları deyil. İdman dostluğu möhkəmləndirən, xalqlararası münasibətləri gücləndirən önəmli bir amildir.Bir şəhərdə cəmi iki il ərzində həm Avropa, həm İslam oyunlarının keçirilməsi bizim sivilizasiyalararası dialoqa da verdiyimiz növbəti töhfə kimi qəbul edilməlidir".

### XVI YAY PARALİMPİYA OYUNLARI AZƏRBAYCANIN İDMAN TARİXİNDƏ YENİ HADİSƏYƏ ÇEVRİLDİ

2019-cu ilin iyul ayında Bakıda təşkil olunmuş XV Avropa Gənclər Yay Olimpiya Festivalı gələcəyin idman ulduzlarının növbəti zəfər meydanı oldu. 48 ölkəni təmsil edən 3600-dən çox idmançı qalib adı uğrunda mübarizə apardı. Azərbaycan komandası Avropanın Rusiya, Böyük Britaniya və Türkiyə istisna olmaqla, bütün ölkələrini, o cümlədən Fransa, Almaniya, İtaliya, Ukrayna, İspaniya, Çexiya, Hollandiya, Belarus, İsveçrə, Avstriya və başqalarını qabaqlayaraq, festivalda 23 medal qazanmış və ümumi komanda hesabında 4-cü olmuşdur.Tokio 2020 Yay Olimpiya Oyunları bütün dünyada tüğyan edən koronavirus pandemiyası səbəbindən 2021-ci ilin yayında keçirildi. Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında 3 gümüş və 4 bürünc medal qazanan Azərbaycan idmançıları yarışı 67-ci, medalların sayına görə 31-ci sırada tamamladılar.

### "İDMANIN İNKİŞAFI XALQIN SAĞLAMLIĞIDIR VƏ AZƏRBAYCAN XALQI SAĞLAM OLMALIDIR"

Ölkə Prezidenti İlham Əliyevin hər bir idmançı və məşqçinin MOK, Gənclər və İdman Nazirliyi tərəfindən təqaüdlərlə təmin etməsi də ölkəmiz də Olimpiya Hərəkatına müsbət təsir edən amillər sırasındadır. MOK Azərbaycanda idmanın və Respublika Olimpiya Hərəkatının inkişafına xüsusi qayğı göstərir. İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. Bu gün Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilib. Azərbaycanın bölgələrində onlarla müasir Olimpiya İdman Kompleksi tikilib. Bakıda isə ən müasir idman infrastrukturu mövcuddur. 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu, Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəz və s. müasir idman qurğularıdır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamda, Azərbaycan gənclərini sağlam və fəal həyat tərzinə təşviq etmək və onların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədi ilə 2013-2023-cü illəri əhatə edən İnkişaf Strategiyası həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğulayıb ki, idmanın kütləviliyini təmin edərək biz xalqımızın sağlamlığını qoruyacağıq və bizim gənclərimiz, gənc nəsil sağlam olacaq - həm fiziki cəhətdən, həm mənəvi baxımdan: "Çünki fiziki cəhətdən güclü insan adətən öz gücündən yalnız çətin məqamda istifadə etməlidir. Güclü insanda özünə əminlik var. Fiziki cəhətdən güclü insan heç vaxt ondan zəif insana qarşı zor tətbiq etməməlidir. Ancaq özünü, öz yaxınlarını, öz torpağını qorumalıdır. Ona görə idmanın inkişafı, sadəcə olaraq, idman nəticələri əldə etmək üçün vasitə deyil, idmanın inkişafı xalqın sağlamlığıdır və Azərbaycan xalqı sağlam olmalıdır".

***Zümrüd BAYRAMOVA***

# Əmək haqlarının artırılması əhalinin sosial vəziyyətinə necə təsir edəcək?

***Ölkəmizdə vətəndaş rifahının təminatı istiqamətində islahatların növbəti mərhələsinə artıq start verildi. Prezident İlham Əliyevin bu gün imzaladığı yeni Sərəncamla minimum aylıq əməkhaqqının məbləği artırılaraq 250 manatdan 300 manata çatdırılıb. Sərəncam 1 yanvar 2022-ci ildən tətbiq ediləcək. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin maaşlarının minimum məbləğləri də bu Sərəncama uyğunlaşdırılacaq. Minimum əməkhaqqının artımı vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə artımlara imkan verəcək.***



Ümumilikdə minimum əməkhaqqı və VTC üzrə işləyənlərin əməkhaqqının artımı 800 min nəfərə şamil olunacaq. Dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min işçinin mövcud əməkhaqları yanvar ayından artacaq.

Minimum əməkhaqqı artımı üçün illik əlavə maliyyə xərci 460 milyon manat təşkil edir. Dövlət büdcəsinin artan imkanlarından sosial məqsədli ödənişlər üçün istifadə edilir. Məlum olduğu kimi, gələn ilin dövlət büdcəsi indiyəqədərki ən yüksək məbləği ehtiva edir. Dövlət büdcəsindəki bu artım isə özünü bütün sahələrdə, o cümlədən əhalinin sosial müdafiəsinin gücləndirilməsində göstərir.

Bu artım son 3 ildə sosial sahədə inqilabi xarakter alan, bütün istiqamətlər üzrə sosial ödənişlərdə ciddi artımları təmin edən islahatların davamıdır. Dövlət başçısının Sərəncamları ilə minimum əməkhaqqında mütəmadi artımlar davamlı xarakter alıb. Son 3 ildə mühüm irəiləyiş olaraq ölkəmizdə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb. Minimum əməkhaqqı artımı əhalinin gəlirlərində artımı təmin etməklə, əmək bazarındakı proseslərə müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını, eyni zamanda əməyin leqallaşdırılmasını stimullaşdırır.

Bu artım həm də dünyada baş verən pandemiya səbəbindən yaranmış iqtisadi maliyyə böhranı şəraitində xüsuisilə vacibdir. Məlum olduğu kimi, son 2 ildə yaranmış qlobal vəziyyət bütün ölkələrdə iqtisadi böhran, maliyyə çatışmazlığı, inflayasiya, milli valyutanın dəyərdən düşməsi ilə nəticələnib. Azərbaycan isə bu qlobal iqtisadi böhrandan minimum itkilərlə çıxmağı bacarıb. Ölkəmizdə bəzi məhsullarda bahalaşma müşahidə olunsa da, ciddi inflyasiya baş vermədi, milli valyuta dəyərdən düşmədi. Bu səbəbdən əməkhaqlarının artırlması müəyyən sahələrdə yaranmış bahalaşmanı konpensasiya edə bilər və əhalinin sosial vəziyyətinin pisləşməsinin qarşısını ala bilər.

Gələn il minimum əmək haqqı 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu (210 manat) da 43% üstələyəcək. Yeri gəlmişkən, həm yaşayış minimumunun, həm də minimum əməkhaqqının artırılması dolayısı ilə əhaliyə müxtəlif ödənişlərin də artmasına gətirib çıxaracaq. Belə ki, bir çox ödənişlər məhz minimum əməkhaqqının və ya yaşayış minimumun misli ilə müəyyən edilir.

Digər tərəfdən, bu artım ölkəmizdə xalis minimum əmək haqqının xalis orta aylıq əmək haqqına olan nisbəti göstəricisinin də növbəti dəfə yüksəlməsinə imkan verəcək. Son 3 ildə həmin nisbət 2018-ci ildəki 26,5%-dən 2019-cu ildə 33,3%-ə, 2020-ci ildə 38%-ə yüksəlib, 2022-ci ildə isə təqribən 40-41% səviyyəsinə yüksələcək. Bununla da həmin nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində daha bir irəliləyişə nail olunur.

Beləliklə, minimum əməkhaqqının artması dolayı yolla həm də orta əməkhaqlarının yüksəlməsinə səbəb olacaq. İlkin təhlil göstərir ki, artım faizi inflyasiya fazini xeyli üstələyir və gələn il ərzində sosial ödənişlərdə və əməkhjaqqında yenə artımlar ola bilər. Çünki ölkəmizin dövlət büdcəsinin davamlı artması müşahidə olunur. Gələn ilin ortasında büdcəyə yenidən baxılması zamanı əməkhaqqı və sosial ödənişlərdə yeni artımlar edilə bilər.

*Azərbaycan Prezidentinin Sərəncamı ilə əməkhaqqlarının artırılması əhalinin sosial rifahının yüksəlməsinə səbəb olacaq*

Qeyd etmək lazımdır ki, hazırki beynəlxalq vəziyyət əksər ölkələri çox ağır vəziyyətə salıb, əhali yoxsullaşıb, mal və xidmətlərin qiyməti bahalaşıb, inflyasiya sürətlənib, vergilər və kommunal ödənişlər xeyli artıb. Elə uzağa getmədən, qonşu ölkələrdə Rusiyada, İranda, Türkiyədə, Ermənistanda, Gürcüstanda yaranmış ağır iqtisadi və sosial vəziyyəti göstərmək olar. Bu ölkələrdə milli valyuta xeyli dəyərini itirib, inflayssiya sürətlənib, bahalaşma fonunda əhalinin real gəlirləri azalıb. Azərbaycanda isə qlobal iqtisadi böhranın müəyyən təsirləri olsa da, dövlət əhalinin bu qlobal böhrandan minimum itkilərlə çıxması, sosial vəziyyətinin yaxşılaşması üçün bütün mümkün imkanlardan istifadə edir.

Əlbəttə, sosial islahatlar tək bu sərəncamla yekunlaşmır, elə bu gün cənab Prezident bir neçə analoji sərəncam verib. Məsələn, Prezident İlham Əliyevin "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" Sərəncamı da 2022-ci ilin yeni sosial paketinin tərkib hissəsidir.

Sərəncam dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçiləri əhatə etməklə onların sosial rifahının yaxşılaşdırılmasına xidmət edir. Həmin təşkilatlarda çalışanların maaşları 2022-ci il yanvarın 1-dən orta hesabla 20% artırılacaq. Bu məqsədlə dövlət büdcəsindən 9 milyon manat illik əlavə vəsait nəzərdə tutulub. Bu təşkilatlarda ümumilikdə 4 min şəxs çalışır.

Prezident İlham Əliyevin imzaladığı digər iki Sərəncam ölkəmizdə təhsil işçilərinin sosial müdafiəsinə diqqət və qayğı göstərilməsinin növbəti təzahürüdür. Sərəncamlarla 2022-ci il yanvarın 1-dən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin maaşları orta hesabla 20%, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40% artırılır.

Həmçinin 2022-ci il yanvarın 1-dən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin maaşları orta hesabla 20%, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40%, fiziki tərbiyə rəhbərlərinin maaşları orta hesabla 30% artırılır.

Təhsil müəssisələrində çalışanların əməkhaqqı artımı 165 min təhsil işçisinə şamil olunmaqla, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Artımların edilməsi məqsədlə dövlət büdcəsində 273 milyon manat illik əlavə vəsait nəzərdə tutulub. Prezident İlham Əliyevin yeni Sərəncamı ilə 2022-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqının 300 manata çatdırılması ilə əlaqədar əməkhaqları Vahid Tarif Cədvəli (VTC) əsasında tənzimlənən işçilərin maaşları da bu artıma uyğun olaraq orta hesabla 20% artırılacaq.

Bu məqsədlə Nazirlər Kabineti həmin işçilərin tarif (vəzifə) maaşlarını minimum əməkhaqqı artımına uyğunlaşdırılmış şəkildə, əməyin ödənilməsinin dərəcələri üzrə artımlarla ifadə edən yeni cədvəli təsdiq edəcək. Gələn ilin əvvəlindən tətbiqinə başlanacaq həmin cədvəldə işçilərin maaşları hər bir dərəcə üzrə artırılmış məbləğlərdə əksini tapacaq. Həmçinin cədvəldə büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri də artırılacaq.

Əməkhaqları VTC əsasında ödənilən işçilərin sırasına dövlət büdcəsindən maliyyələşdirilən sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışanlar daxildir.

Həmçinin dövlət orqanlarında çalışan, lakin dövlət qulluqçusu olmayan işçilərin maaşları da aidiyyəti dövlət orqanlarının kateqoriyaları üzrə müvafiq intervalda artacaq. Yeni ilin 1 yanvarınadək qüvvədə olan mövcud 19 pilləli VTC üzrə əməkhaqlarının minimal həddi 250, maksimal həddi 906 manatdır. Təsdiqlənəcək yeni cədvəldə bu göstəricilərdə minimum əməkhaqqı artımına uyğun artımlar olacaq.

Göründüyü kimi, tək bu gün verilən sərəncamlar milyonlarla vətəndaşın gəlirlərini artıracaq, sosial vəziyyətini yaxşılaşdıracaq. Sosial proqramın bununla yekunlaşmayacağı və davam edəcəyi şübhəsizdir. 2022-ci ilin sosial islahatları dövlət başçısının "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il 16 oktyabr tarixli Sərəncamına əsasən reallaşdırılır. Yeni ildən tətbiq ediləcək bu islahatlar üçün illik əlavə 1,5 milyard manat vəsait nəzərdə tutulub. İslahatlar 2,1 milyondan çox şəxsi əhatə edəcək.

2021-ci ildə Azərbaycanın iqtisadi və sosial göstəricilərdə dünya reytinqdə daha yuxarı yerlərdən birini tutacağına şübhə yoxdur. Bu sərəncamlar daha bir həqiqəti ortaya qoyur. Azərbaycan öz ərazilərinin işğaldan azal edfilməsi üçün apardığı müharoibəyə və ondan sonrakı dövrdə həmin ərazilərin bərpasına külli miqdarda vəsait xərcləyib və ildən ilə bu xərclər artacaq. Bu fonda dövlət tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi bir daha Prezident İlham Əliyev üçün əsas prioritetin əhalinin sosial rifahı olduğu aydın şəkildə ortaya çıxır.

***Elçin Bayramlı***

# "Əmək haqlarının artırılması əhalinin sosial rifahını yaxşılaşdıracaq"



***"Prezident İlham Əliyevin sərncamı ilə 2022-ci ilin yanvarın 1-dən ölkəmizdə minimum əmək haqqının 300 manata çatdırılması, həm də vahid tarif cədvəli üzrə işləyənlərin əmək haqlarının artırılması əhalinin sosial rifahının yaxşılaşmasına xidmət edəcəkdir. Həm də cənab Prezidentin sərəncamları ilə dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların əmək haqları da yanvarın 1-dən artırılır". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.***

Onun sözlərinə görə, bu ilk növbədə Prezident İlham Əliyevin yürütdüyü siyasətin göstəricisidir: "Minimum əmək haqqının artırılması özəl strukturlarda çalışanların əmək haqlarının da artmasına öz təsirini göstərəcəkdir. Çünki, ölkədə qanunla minimum əmək haqqıdan aşağı əmək haqqının ödənişi qadağandır. Bu özəl sektorda minimum əmək haqqı səviyyəsində ödəniş alanların əmək haqlarının artması deməkdir". Deputat sözlərinə belə davam edib: "O cümlədən, muzdla işləyən 600 mindən çox insanın əmək haqqısının artmasına öz təsirini göstərəcəkdir. Son vaxtlar bazarlarda müəyyən malların qiymətlərindəki artımlarla bağlı cəmiyyətdə fərqli fikirlər səslənirdi. Cənab Prezidentin imzaladığı bu sərəncamlar sosial paket olaraq yenidən qüvvəyə minəcək və insanların gəlirlərinin artmasına, həmçinin alıcılıq qabiliyyətinin artmasına xidmət edəcəkdir".

***Ayşən Vəli***

# "Bu Fərman dövlət siyasətinin prioritet istiqamətlərindən biridir"



***"Azərbaycan Prezidentinin "Şəhid ailəsi statusu almış şəxslərin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" 16 dekabr 2021-ci il tarixli Fərmanı şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısının yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir". Bu sözləri Səs İnformasiya Agentliyinə açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov deyib.***

Onun sözlərinə görə, dövlət başısının imzaladığı fərmana uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında tikilən və hazırda inşası davam etdirilən çoxmənzilli binalardakı istifadəsiz qalan mənzillərin satışından əldə olunan vəsait şəhid ailələri və müharibə əlillərinin, habelə Çernobıl AES-də qəza ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzillə və ya fərdi evlə təmin edilməsi üçün sərf ediləcək. Soltan Məmmədov qeyd edib ki, ötən müddətdə şəhid ailələrinin üzvlərinə və müharibə əlillərinə 12 minədək mənzil və fərdi ev təqdim olunub: "Prezident İlham Əliyevin bu ilin yanvarında imzaladığı Sərəncamla bu sahədə təsdiq edilən yeni proqramlar 2021-2025-ci illərdə şəhid ailələrinə 11 min mənzil və fərdi ev verilməsini nəzərdə tutur. İmzalanmış yeni Fərman bir daha göstərir ki, Azərbaycanda şəhid ailələrinin, eləcə də ölkənin ərazi bütövlüyü və suverenliyi uğrunda sağlamlığını itirmiş vətəndaşların sosial müdafiəsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir".

***Abutel İlhamqızı***

*Azərbaycanın 44 günlük müharibədə düşmən üzərində hərbi, daha sonra 9 noyabr və 2021-ci il 11 yanvar bəyanatları ilə diplomatik müstəvidə qazandığı qələbələr Soçi və onun ardınca isə dekabrın 14-15-də qəbul olunan Brüssel bəyanatı ilə daha da möhkəmləndi. Çünki Soçi bəyanatında əks olunanlar Azərbaycan tərəfinin daim tərəfdaş olduğu, bəyan və diktə etdiyi müddəalar, həmçinin, Brüsseldə imzalan bəyanat da mahiyyət etibarilə dövlətimizin növbəti siyasi-diplomatik qələbəsinin sənədli faktıdır.*

TƏHLİL



# Yenə də Azərbaycanın şərtləri keçərli oldu!

*Soçidə keçirilən üçtərəfli görüşdə olduğu kimi, Brüsseldə də şərtləri İlham Əliyev diktə etdi*

Hərb meydanında Azərbaycanın qarşısında duruş gətirə bilməyən işğalçı Ermənistan acı aqibətini anlayaraq ötən ilin noyabrında kapitulyasiya aktına imza atmışdı və elə bu ilin 11 yanvarında ölkəmizin irəli sürdüyü bütün müddəaları qəbul etmişdi. Daha doğrusu, İkinci Qarabağ müharibəsinin qalib və məğlubu arasında aparılan sülh danışıqları, götürülmüş öhdəliklərin yerinə yetirilməsi istiqamətində görülən işlərin vəziyyəti, məhz dekabrın 14-15-də Belçikada bir daha nəzərdən keçirildi. Ən maraqlı məqam isə istər Soçi, istərsə də Brüssel görüşündə qalib Azərbaycan Prezidenti İlham Əliyev qarşısında Nikol Paşinyan yenə məğlub və çarəsiz göründü. Çünki həm noyabrın 26-da Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Soçidə keçirilən üçtərəfli görüşdə olduğu kimi, Brüsseldə də şərtləri Azərbaycan Prezidenti İlham Əliyev diktə etdi. Azərbaycan Prezidenti dünya birliyinin diqqətinə çatdırdı ki, məğlub ölkə götürdüyü öhdəliyi yerinə yetirməkdən açıq-aşkar boyun qaçırır. Bu da tərəflər arasında sülh sazişinin imzalanmasını gecikdirir. Prezident İlham Əliyevin NATO baş katibi Yens Stoltenberqlə görüşündə gözlənildiyi kimi, əsas diqqət Cənubi Qafqazda post-müharibə vəziyyətinə yönəldi. NATO tərəflər arasında münaqişənin bitməsini təqdir edir. Dövlət başçımız isə bir daha bəyan etdi ki, Azərbaycan sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqdir. Əsas məqsəd təbii ki, regionda hər hansı yeni müharibə risklərinin minimuma endirilməsinə nail olmaqdır.

## Prezident İlham Əliyev: "Üçtərəfli görüşün qərarları regionda təhlükəsizliyi artıracaq və bu nəticələri çox gözləmək lazım gəlməyəcək..."

Bəli, Brüssel görüşü bir daha sübut etdi ki, şərtləri qalib lider diktə edir və məcلub olan ölkənin rəhbəri də bu şərtlərə əməl etməlidir. Çünki 2020-ci il sentyabrın 27-də başlayan İkinci Vətən müharibəsi, məhz Ali Baş Komandanımız, Azərbaycan Prezidenti İlham Əliyev 30 ildə həll olunmayan qondarma "DQ"nin həllinə "Dəmir yumruq" əməliyyatı ilə Güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərin qəhrəmanlığı ilə 44 gün ərzində haqqın, ədalətin, ərazi bütövlüyümüzün bərpasına və Qarabağımıza qovuşdurdu.

İstər Soçi, istərsə də Brüssel görüşlərində bir daha sübut olundu ki, Azərbacan Prezidenti qalib lider olaraq Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüşdə də həqiqətləri açıqlayacaq və açıqladı da! Prezident müharibədən ötən bir il ərzində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda gördüyü böyük işləri göstərərək dünyaya bəyan etdi ki, Azərbaycan, hər zaman olduğu kimi, sülh tərəfdarıdır. Öhdəliklərin yerinə yetirilməsi də bölgədə təhlükəsizliyin təminatına xidmət edəcək. Ancaq görünən odur ki, Ermənistan yenə də hansısa bəhanələr uydurmaqla vaxt uzadır. Yəni, Azərbaycan bu istiqamətdə nəticəyönümlü addımlar atır. Amma Ermənistan da xoş məram sərgiləməlidir.

Prezident İlham Əliyevin NATO baş katibi ilə görüşündə verdiyi əsas mesaj budur ki, biz iki ölkə arasında sülh razılaşması üzərində işləyə və düşmənçiliyə son qoya bilərik. Və Ermənistan Zəngəzur dəhlizi ətrafında manipulyasiyadan əl çəkməlidir. Azərbaycan Zəngəzur dəhlizinin hüquqi rejim nöqteyi-nəzərindən Laçın dəhlizinin eynisi olmasını tələb edir və tamamilə haqlıdır. Çünki 10 noyabr 2020-ci il imzalanan üçtərəfli bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi, maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir.

## "Qarabağın statusu barədə hər hansı müzakirəyə dönüş yoxdur, münaqişə bitib"

Azərbaycan Prezidenti İlham Əliyev İspaniyanın "El Pais" nəşrinə müsahibəsində deyib ki, Qarabağın statusu barədə hər hansı müzakirəyə dönüş yoxdur, Dağlıq Qarabağ münaqişəsi bitib. Bəli, Ermənistan bunu istəsə də, istəməsə də Dağlıq Qarabağ münaqişəsi bitib: "Azərbaycanın mövqeyi açıq-aydındır. Biz sülh istəyirik, müharibə istəmirik. Biz müharibədə zəfər çaldıq, biz qalibik. Bu reallığı nəzərə almaq lazımdır", - dövlət başçısı bildirib. Bölgədəki vəziyyətə toxunan Prezident İlham Əliyev bunun nisbətən sabit olduğunu vurğulayıb: "Təəssüf ki, Ermənistan revanş cəhdlərinin qarşısını almayıb. Onlar üçün İkinci Qarabağ müharibəsində məğlubiyyət çox ağrılı, demək olar, 30 ildir ordunun məğlubedilməzliyi, onun əsgər və komandirlərinin gücünü, cəsarətini təbliğ edən ideoloji əsas və təbliğatı üçün sarsıdıcı olub. 44 günlük müharibə zamanı onların ordusu tamamilə məhv edilib".

## "Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik"

Qalib lider İlham Əliyevin verdiyi digər mesaj isə ondan ibarətdir ki, Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin təyin olunmaması ilə bağlı olub: "Keçən ilin noyabrında İkinci Qarabağ müharibəsi bitəndə həmin ərazidə iqlim şəraiti digər ərazilərdən fərqli idi. Uca dağlar və qarla dolu bir ərazi idi. Bu ilin may ayında qar əriməyə başladı. Bu baş verən kimi Azərbaycan Ordusu dövlət sərhədinə tərəf hərəkət etməyə başladı və bu sərhədin haradan keçməsi ilə bağlı olan anlayışımıza əsasən, dövlət sərhədində mövqe tutdu. Yəni, hadisə belə olub. Əfsuslar olsun ki, Ermənistan Azərbaycanın hər hansı bir səbəb olmadan Ermənistanın ərazisinə müdaxilə etməsi ilə bağlı iddialar irəli sürməyə başladı. Beləliklə, biz öz ərazimiz hesab etdiyimiz ərazidə dururuq" - dövlət başçısı qeyd edib.

Dövlət başçısı vurğulayıb ki, Qarabağ müharibəsinin bitməsindən sonra lap ilk günlərdən Ermənistana sərhədlərin demarkasiyası üzərində işləməyə başlamağı və delimitasiya üzrə birgə işçi qrupunu yaratmağı və ərazidə bütün mübahisələri masa üzərində aydınlaşdırmağı təklif etdik: "Müharibə bitəndən sonra bir ildən çox müddətdə Ermənistan tərəfindən dövlət sərhədində hərbi təxribatlar törətmək üçün bir neçə cəhd edilib. Onların hamısı uğursuz oldu. Bütün bu səylər nəticəsində onlar öz hərbi mövqelərini itirdi və Azərbaycan dövlət sərhədində mövqelərini gücləndirdi. Eyni hal keçən ay baş verdi. O zaman onlar birərkdən Azərbaycan Ordusuna qarşı qəsdən təxribat törətdilər və bu, bir neçə gün davam etdi. İlk günlər ərzində atəş açılmırdı, çünki Azərbaycan əsgərləri həmin ərazinin onlara aid olmadığını və getməli olduqlarını onlara başa saldı və onlar da getdilər. Lakin bizə qarşı artilleriya hücumlarına başladılar. Bizdə bir neçə nəfər həlak oldu və yaralandı. İndi vəziyyət sabitdir. Biz özümüz heç nə planlaşdırmamışdıq, əks halda biz dayanmazdıq. Noyabrın 16-da baş vermiş toqquşma bir gündən az davam etdi. Səhər başladı və axşam saat 6-7 radələrində bitdi. Beləliklə, biz bunu planlaşdırsaydıq dayanmazdıq, çünki Ermənistanın istənilən yerdə bizi dayandırmaq üçün hərbi bacarığı yoxdur. Bizim belə planlarımız yoxdur və buna görə də biz dayandıq. Biz sülh istəyirik, yetərincə müharibə oldu. Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik. Buna görə biz onların bütün manevrlərini, yenidən qruplaşmalarını və bizə təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün bütün cəhdlərini çox yaxından izləyəcəyik. Bunun baş verdiyini görsək, təhlükəni dərhal aradan qaldıracağıq və onlar bunu bilirlər. Beynəlxalq oyunçular də bunu bilirlər. Müsbət dinamika görsək, biz, əlbəttə ki, bundan yararlanacağıq və sülhün gücləndirilməsinə öz töhfəmizi verəcəyik".

Dövlət başçısının növbəti mesajı isə Ermənistan işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsi oldu. Və Avropa İttifaqının bu istiqamətdə Azərbaycana texniki yardım göstərməyə hazır olduğu bildirildi. Və üçtərəfli Bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir. Prezident İlham Əliyev NATO-nun mənzil-qərargahında Alyansın Baş katibi Yens Stoltenberq ilə birgə keçirilən mətbuat konfransında bildirmişdir bu gün Laçın dəhlizində gömrüyün olmaması ilə bağlı oldu: "Bu gün Laçın dəhlizində gömrük yoxdursa, buna görə də Zəngəzur dəhlizində də gömrük olmamalıdır. Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda biz Laçın dəhlizində eynisində israr edəcəyik. Bu, məntiqidir və qərar Ermənistan tərəfindən qəbul edilməlidir. Biz hər iki varianta hazırıq, ya hər ikisində heç bir gömrüyün olmaması, ya da hər ikisində hər iki gömrüyün olması".

Beləliklə, bu gün Laçın dəhlizində gömrük yoxdur. Ona görə də Zəngəzur dəhlizində də gömrük olmamalıdır. Bu, məntiqidir və qərar Ermənistan tərəfindən qəbul edilməlidir. Biz hər iki varianta hazırıq, ya hər ikisində heç bir gömrüyün olmaması, ya da hər ikisində gömrüyün olması....

Göründüyü kimi, bütün bunlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyev Soçidə imzalanmış bəyanat və ondan sonrakı növbəti Brüssel görüşü bir daha göstərdi ki, şərtləri qalib ölkə diktə edir və məğlub və aciz olan Paşinyan da anlamalıdır ki, şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Həmçinin şərtlərə və götürdüyü öhdəliklərə əməl etməyərək təxribatlar törətməklə, bütün dünya bir daha Ermənistanın 44 günlük Vətən müharibəsindəki məğlubiyyəti ilə barışmaqda çətinlik çəkdiyinin və buna görə də Azərbaycana qarşı təxribatlara əl atdığının şahidi oldu. Amma bu dəfə də Azərbaycanın "dəmir yumruğ"unu dadaraq yerinə otuzduruldu və Ermənistan bir daha unutmayacağı şəkildə anladı ki, əl atdığı bütün təxribatlarının qarşısı Azərbaycan ordusu tərəfindən qətiyyətlə alınacaq. Və buna görə də zatən Paşinyan və Ermənistan yeni reallıqları qəbul eləməli, eyni zamanda, həmin reallıqlarla barışmalıdır. Azərbaycan qalib ölkədir və bundan sonra diktə edən tərəf də hər zaman Azərbaycan olacaq!

Bir sözlə, həm Soçi, həm də Brüssel görüşləri bir daha təsdiq etdi ki, qalib ölkənin qalib lideri Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi: "Ermənistan istəsə də, istəməsə də..."

**RƏFİQƏ KAMALQIZI**

# Minimum əməkhaqqı artımı neçə yüz min nəfərə şamil olunacaq?

*Minimum əmək haqqının 300 manata çatdırılması ilə bağlı Prezident Sərəncamı 800 min nəfəri əhatə edəcək. Bu barədə SİA-ya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib. Ölkəmizdə vətəndaş rifahının təminatı istiqamətində islahatların növbəti mərhələsinə başlandı. Prezident İlham Əliyevin imzaladığı yeni Sərəncamla minimum aylıq əməkhaqqının məbləği artırılaraq 250 manatdan 300 manata çatdırılır. Sərəncam 1 yanvar 2022-ci ildən tətbiq ediləcək.*

Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin maaşlarının minimum məbləğləri də bu Sərəncama uyğunlaşdırılacaq. Minimum əməkhaqqının artımı vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə artımlara imkan verəcək.

Ümumilikdə minimum əməkhaqqı və VTC üzrə işləyənlərin əməkhaqqının artımı 800 min nəfərə şamil olunacaq. Dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min işçinin mövcud əməkhaqları yanvar ayından artacaq.

Minimum əməkhaqqı artımı üçün illik əlavə maliyyə xərci 460 milyon manat təşkil edir. Bu artım son üç ildə sosial sahədə inqilabi xarakter alan, bütün istiqamətlər üzrə sosial ödənişlərdə ciddi artımları təmin edən islahatların davamıdır. Dövlət başçısının Sərəncamları ilə minimum əməkhaqqında mütəmadi artımlar davamlı xarakter alıb. Son üç ildə mühüm irəliləyiş olaraq ölkəmizdə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb.



Minimum əməkhaqqı artımı əhalinin gəlirlərində artımı təmin etməklə, əmək bazarındakı proseslərə müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını, eyni zamanda əməyin leqallaşdırılmasını stimullaşdırır.

Gələn il minimum əmək haqqı 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu (210 manat) da 43% üstələyəcək. Digər tərəfdən, bu artım ölkəmizdə xalis minimum əmək haqqının xalis orta aylıq əmək haqqına olan nisbəti göstəricisinin də növbəti dəfə yüksəlməsinə imkan verəcək. Son üç ildə həmin nisbət 2018-ci ildəki 26,5%-dən 2019-cu ildə 33,3%-ə, 2020-ci ildə 38%-ə yüksəlib, 2022-ci ildə isə təqribən 40-41% səviyyəsinə yüksələcək. Bununla da həmin nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində daha bir irəliləyişə nail olunur.

## Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərlə bağlı qətnamə BMT Baş Assambleyasında qəbul edilib



***Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi pandemiyaya qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səfərbər edilməsi istiqamətində qlobal liderliyini davam etdirir.***

2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev "peyvənd millətçiliyi"ni, varlı və kasıb ölkələr arasında peyvəndlərə əlçatanlıqla bağlı qeyri-bərabərliyi bir daha tənqid etmiş və bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunması ilə bağlı Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasında qətnamənin irəli sürüləcəyini elan etmişdir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, münasib, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamə dekabrın 16-da BMT Baş Assambleyasında 179 ölkənin dəstəyi ilə qəbul olunub. Bu qətnamənin qəbul edilməsi ilə beynəlxalq ictimaiyyət Prezident İlham Əliyevin COVID-19 pandemiyasına, "peyvənd millətçiliyi"nə qarşı təşəbbüslərini bir daha dəstəklədiyini nümayiş etdirdi.

## "Sistemləşmədən sonra jurnalistlərə daha çox güzəştlə bağlı layihələrlə çıxış edə bilərik"

*"Media haqqında" qanun layihəsi jurnalistlər və media subyektləri üçün güzəşt və imtiyazların tətbiq olunmasını nəzərdə tutur. "İki sahil" xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov Milli Məclisin İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında videokonfrans formatında "Media haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı deyib.*




Ə.Ismayılov bildirib ki, qanun layihəsinin məqsədi sistemləşmənin təşkilidir. "Bu sistemləşmə təşkil olunduqdan sonra daha çox güzəşt və imtiyazların verilməsi ilə bağlı layihələrlə çıxış edə bilərik. Layihədə nəzərdə tutulmuş normalar bizə bu imkanı verir", - deyə Ə.İsmayılov bildirib.

Ə.İsmayılov vurğulayıb ki, "Media haqqında" qanun layihəsi qəbul olunduqdan sonra "Reklam haqqında" qanuna da dəyişikliklər edilə bilər: "Reklam məsələləri "Reklam haqqında" qanunla tənzimlənir. "Media haqqında" qanun qəbul olunursa, bu qanundan irəli gələn müvafiq dəyişikliklər və uyğunlaşdırma həyata keçiriləcək. Bununla bağlı məsələlər media nümayəndələri ilə müzakirə ediləcək."



## Təhsil naziri: "Müəllimlik ixtisasının formatının və mənasının dəyişməsi çox vacibdir"

Azərbaycan Dövlət Pedaqoji Universitetinin ölkədə istər təhsil, istərsə də elmin inkişafında müstəsna rolu olub. Universitetin məzunları həm təhsil, həm də çalışdıqları digər sahələrdə ölkənin ümumi inkişafına, sosial-iqtisadi və mədəni tərəqqisinə kifayət qədər sanballı töhfələr veriblər. AZƏRTAC xəbər verir ki, bunu təhsil naziri Emin Əmrullayev Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi mərasimində jurnalistlərə müsahibəsində bildirib.

Nazir universitetin əldə etdiyi uğurlardan, habelə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində ADPU-nun ABŞ-ın Corc Vaşinqton Universiteti ilə uğurla davam edən ikili diplom proqramının əhəmiyyətindən danışıb. Həmçinin ADPU-ya tələbə qəbulunun, eləcə də universitetin məzunlarının müəllimlərin işə qəbulu imtahanlarının nəticələrinin yüksək olduğunu bildirib.

Emin Əmrullayev deyib: "Son illər istərsə də müəllimlərin işə qəbulu müsabiqəsi, istərsə də müəllimlik ixtisasına qəbulda statistik rəqəmlər artıb. MİQ vasitəsilə işə qəbul olan müəllimlərin sayı 18 min nəfərdən, təxminən 55-56 min nəfərə çatıb, yəni bu rəqəm 3 dəfə artıb. Bu da daha artıq rəqabət qabiliyyətli və keyfiyyətli müəllim seçmək imkanı yaradıb. Müəllimlik ixtisasının formatının və mənasının dəyişməsi çox vacibdir. XXI əsr müəlliminə XX əsr müəllimində olan bacarıqlarla yanaşı, əlavə bacarıqlar da tələb olunur, artıq yeni bacarıq tələbləri də var".

Nazir vurğulayıb ki, ali məktəbin məzunlarının bir qismi fəaliyyətini işğaldan azad edilmiş ərazilərdə davam etdirəcək. Bu, yeni nəslin hazırlanması baxımından vacib və ümidverici məqamdır.

# Beynəlxalq ictimaiyyət Azərbaycanın "peyvənd millətçiliyi"nə qarşı təşəbbüslərini dəstəkləyir




***Beynəlxalq ictimaiyyət Azərbaycan Prezidenti İlham Əliyevin COVİD-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizəsini və təşəbbüslərini dəstəkləyir. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi pandemiyaya qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səfərbər edilməsi istiqamətində qlobal liderliyini davam etdirir.***

2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev "peyvənd millətçiliyi"ni, varlı və kasıb ölkələr arasında peyvəndlərə əlçatanlıqla bağlı qeyri-bərabərliyi bir daha tənqid etmiş və bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunması ilə bağlı Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasında qətnamənin irəli sürüləcəyini elan etmişdir.

Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, münasib, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamə dekabrın 16-da BMT Baş Assambleyasında 179 ölkənin dəstəyi ilə qəbul olunub. Bu gün endirilməsi məqsədilə mühüm və praktiki tədbirlər həyata keçirir".

"Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarıdır" - deyən Cənab Prezident Qoşulmama Hərəkatının Sədri qismində Azərbaycanın bir sıra qlobal təşəbbüslər irəli sürdüyünü diqqətə çatdırıb: "2020-ci ilin may ayında Azərbaycan Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin COVID-19 ilə mübarizəyə həsr edilmiş Zirvə toplantısını təşkil etmişdir. Zirvə toplantısı zamanı mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsini təklif etdim. Həmin təşəbbüs BMT-yə üzv olan 150-dən artıq dövlət tərəfindən dəstəkləndi və 2020-ci il 3-4 dekabr tarixlərində xüsusi sessiya baş tutdu". Dövlət başçısı inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur. Belə ki, dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0.3 faizi az gəlirli ölkələrin payına düşmüşdür.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycanın koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları edib, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi ayırıb, dörd ölkəyə isə təmənnasız olaraq 150 min doza vaksin təqdim edib.

Bildiyimiz kimi, Ümumdünya Səhiyyə Təşkilatı "COVID-19"-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə, Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirmişdi. Azərbaycan pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Peyvənd millətçiliyinə qarşı ən çox mübarizə aparan,



dünya ölkələrinin əksəriyyəti özünə qapandığı dövrdə Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdəndir. Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri zamanı videoformatda çıxışı zamanı bildirdiyi kimi, "COVID-19 pandemiyası bütün dünya üçün ciddi çətinliklər doğurmaqda davam edir. Hökumətimiz ilk günlərdən əhalinin qorunması və pandemiyanın mənfi təsirinin minimuma məkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırmışdı.

### AZƏRBAYCAN PANDEMİYAYA QARŞI QLOBAL SƏYLƏRİ SƏFƏRBƏR EDƏN İLK ÖLKƏLƏRDƏNDİR

Peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Cənab Prezidentin sözlərinə görə, davam edən "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə pandemiyanın qarşısının alınması üçün real iş görən ölkələrdən biri kimi tanınıb və qəbul edilib.Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, münasib, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamənin qəbul edilməsi ilə beynəlxalq ictimaiyyətin Prezident İlham Əliyevin COVID-19 pandemiyasına, "peyvənd millətçiliyi"nə qarşı təşəbbüslərini bir daha dəstəklədiyini nümayiş etdirmiş oldu.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İnsanların kitaba marağı NİYƏ AZALIB?

## *SƏBƏBLƏR açıqlandı*



"Əslində bütün dünyada mətnli informasiya, yəni kağızda yayımlanan bədii, elmi əsərlərə maraq get-gedə azalır. Çünki, hər dövrün, hər zəmanənin öz texnologiyası olur". Bu sözləri SİA-ya açıqlamasında yazıçı, kulturoloq Aydın Xan Əbilov deyib.

"Vaxtilə papirus kağızında və yaxud əlyazma formasında, daha sonra kitab formasında yayımlanan ədəbiyyat, mətn, elmi əsərlər indi daha çox vizual və virtual görüntülü şəkildə yayımlanır. Vaxtilə yazıçılar şeir, poema, məsnəvi, hekayə, roman, povestlə dediyini indi kinofilmlər, teleseriallar və digər formatda görüntülü informasiya ilə əvəzlənib. Bunu da normal qarşılamaq lazımdır, eyni zamanda yeni mütaliə, oxu, yazı vərdişləri, bacarıqları yaranıb. Biz buna virtual oxu, elektron kitab, elektron mütaliə deyirik. Bu nə deməkdir? Artıq kağız daşıyıcıda tutaq ki, biz ikiotaqlı evimizdə maksimum 1000 ədəd kitabı kitabxanamızda saxlaya bilərik, ondan çox mümkün deyil. Elektron variantda, internetdə yayımlanmış hər hansı bir kitab və yaxud milyardlarla kitabı biz bir smartfonla, internetə giriş etməklə əldə edə bilərik. İstədiyimiz mətni, kitabı, əgər onun internet elektron variantı varsa dünyanın hansı yazıçısından asılı olmayaraq əldə edə bilirik. Belə ucuz və əlçatan variantların yarandığı bir vaxtda kağız kitabın get-gedə sıradan çıxmasını normal qarşılamalıyıq. Söhbət ədəbiyyatdan, elmi əsərlərdən, mətnlərdən getmir, orada yayım texnologiyasından və o texnologiyanın köhnəlməsindən gedir.

Biz bir kitabı çap etmək üçün çoxlu ağaclar kəsilməlidir, fabriklər işləməlidir, logistik imkanlar olmalıdır. Lakin, elektron variantda buna heç bir ehtiyac yoxdur, orada sadəcə bir tərəf, yəni yazıçı, müəllif həmin informasiyanı yığır, nəşriyyat onu elektronlaşdırır və biz də oxucu olaraq onu oxuyuruq. Əvvəllər bu qədər imkanlar, hər kəsin əlində video, şəkil çəkmək imkanı olan smartfon qurğuları yox idi, televiziya, internet, sosial şəbəkələr bu qədər inkişaf etməmişdi. Bunların hər birinin inkişafı, yeni format olaraq geniş kütləyə çatması əlbəttə ki, kitaba böyük bir zərbə idi və kitab get-gedə zamanın arxivinə getməli idi".

***Rüqəyya Orucova***

# "Media haqqında" qanun layihəsi jurnalistlərə NƏ QAZANDIRACAQ?

***"Bu gün yenə də parlamentin iki komissiyası ilə birlikdə media rəhbərləri və millət vəkilləri qanun layihəsinin müzakirəsi ilə bağlı onlayn toplantı keçirdilər". Bu sözləri SİA-ya açıqlamasında "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid deyib.***



Onun sözlərinə görə, ikinci dəfə idi ki, belə bir geniş müzakirə keçirilirdi: "Müzakirədə müəyyən fikirlər səsləndi. Aydındır ki, bir qrup müəyyən məqamlarla bağlı tənqidi fikirlərini bildirir. Bu gün də Media Agentliyi və Milli Televiziya və Radio Şurasının birgə bəyanatında demək olar ki, bu məsələlərə aydınlıq gətirilib".

Rəşad Məcid sözlərinə belə davam edib: "Bugünkü müzakirədə Milli Televiziya və Radio Şurasının sədri İsmət Abbasov tərəfindən qeyd olundu ki, həmin o platforma yayımçısı 30-cu maddəyə əlavə bir bölmə daxil edilə bilər. Burada internet televiziyası ilə bağlı fikir yazmaqla mübahisəni həll etmək mümkündür. Bu da çox müsbət qarşılandı".

"Media reyestrinin həm media subyekləri, həm jurnalistlər üçün yaradılması vaxtilə bizim Mətbuat Şurasında atdığımız addımlar, "Vahid kart" və "Sarı kart" ideyaları və bu ideyaların həyata keçirilməsidir ki, alınmamışdı. Bu qanun vasitəsilə ola bilsin ki, məsələnin reallaşdırılması mümkün olacaq. Bu, əlbəttə ki media reyestrinə düşməyən hansısa özünü jurnalist hesab edənlərin peşə fəaliyyəti ilə məşğul olmasına heç bir məhtudiyyət yaratmayacaq".

***Ayşən Vəli***

***Qədim tarixə malik olan Azərbaycan müstəqiliyinin əldə olunması xalqımızın həyatında yadda qalan bir tarixdir. Ancaq mövcud reallıqlar və faktlar ondan ibarətdir ki, Azərbaycan demokratiya və tərəqqi yolunda, həmçinin, dövlət quruculuğu yolunda bir sıra maneələrlə qarşılaşmışdır. Erməni daşnak avantüristlərinin "böyük Ermənistan" xülyasını həyata keçirmələri ilə yalançı təbliğatları Qafqaz bölgəsində milli qırğınların başlanmasına gətirib çıxardı.***






# Qafqazda gərginliyin yaranmasında Eçmiədzin katolikosluğu dayanır

Təhlil

Bu vəhşi qırğınlar Bakı, Naxçıvan, İrəvan, Zəngəzur və Cənubi Azərbaycan şəhərlərində davam etmişdir. "Ermənistan dövləti" yaratmaq ideyasını dəstəkləyən və onu maliyyələşdirən, əsasən, kilsələr olmuşdur və bu kilsələr içərisində daha çox fəallıq göstərən Eçmiədzin və Qandzasar idi. Alban kilsəsi olan Qandzasar öz müstəqilliyini VII əsrin əvvəllərində məhz erməni kilsəsinin hiyləgər fəaliyyəti nəticəsində itirərək, erməni kilsəsinə tabe edilmişdi. Məhz bundan sonra xristian albanların "erməniləşdirilməsi" siyasəti həyata keçirilməyə başlamış, Alban mədəniyyətinin nümunələri erməni dilinə tərcümə edilərək yerli dildə olan abidələr məhv edilib izləri tarixdən silinmişdir. Qarabağda olan beş məliklik mənşəcə alban olub, sonradan erməniləşməyə məruz qalmışdılar. Qarabağın 30 illik işğalı zamanı da erməni Alban mədəniyyət nümunələrini erməniləşdirməyə cəhd etmişlər, ancaq torpaqlarımız azadlığına qovuşmaqla saxtakarlıqlar aradan qaldırılmış və tarixi ədalət pərpa olunmuşdur. O vaxtlar erməni millətçiliyinin mühüm mərkəzi İrəvan xanlığının ərazisində yerləşən Eçmiədzin katolikosluğu idi. İri torpaq sahələrinə malik olan və böyük gəlir götürən Eçmiədzin katolikosları təkcə dini deyil, həm də müəyyən dərəcədə siyasi hakimiyyətə malik idilər. Uzun vaxtlar ərzində erməni kilsəsi öz yerini dəyişərək sonda Eçmiədzində mərkəzləşmişdi. Bundan sonra Azərbaycanda yaşayan ermənilər azərbaycanlılardan iri torpaq sahələri almağa başladılar. Məsələn, XVII əsrdə Apostol Foma tərəfindən azərbaycanlı iri feodal Xoca Fətəlibəy Tusinin mülkündən torpaq sahəsi alınmışdı.



## O dövrdə Şərur-Dərələyəz, Sürməli, Naxçıvan qəzalarında vəziyyət

Məhz Eçmiədzin kilsəsinin bu uzaqgörən siyasəti Azərbaycan ərazisində "erməni torpaqlarının" yaranmasına səbəb olmuşdur. Ermənilərin ərazi iddialarının əsassız olduğunu belə bir fakt təsdiq edir ki, bu millətçilərin zorla qoparıb almaq istədikləri Şərur-Dərələyəz, Sürməli, Naxçıvan qəzalarında azərbaycanlılar əhalinin 2/3 hissəsini, Cəbrayıl, Zəngəzur, Cavanşir və Göyçə ilə yanaşı, Qazax qəzalarında isə çoxunu təşkil edirdi. Belə ki, İrəvan qəzasının özündə xalqın 46 faizini azərbaycanlılar təşkil edirdi. Erməni millətçiləri ərazi mübahisələrini zor şəraitində və eləcə də başqa dövlətlərin indiki kimi yardımına arxalanaraq həyata keçirməyə çalışırdılar.

Türk dövləti tərəfindən məğlub olmuş erməni quldur dəstəsinin başçısı Andranik Ozanyan öz ordularının qalıqları ilə qaçaraq Ermənistanda gizlənmişdir. Azərbaycan-Türk orduları 1918-ci ilin yayında Bakı ətrafı istiqamətində döyüşlərin getməsindən istifadə edən Andranikin quldur dəstələri Zəngəzur qəzasına basqın etdi. Əhaliyə ultimatum verərək əhali Zəngezurdan çıxıb getməli və yaxud Erməni dövlətinin hakimiyyətini qəbul etməlidirlər. Silahsız əhali erməni quldurun ultimatumunu rədd etdi. Erməni bandaları müsəlman əhalisini bütövlükdə öldürməyə başladılar. Bu cinayətləri araşdıran Fövqəladə Tədqiqat Komissiyasının məlumatına görə, 1918-ci ilin yay-payız aylarında erməni bandaları tərəfindən Zəngəzurda 115 kənd, bütün müsəlman kəndləri dağıdılmışdır. Bu kəndlərdə 7729 nəfər azərbaycanlı, o cümlədən, 4474 qadın və uşaq öldürülmüş, 50 min adam qaçmışdır. Erməni bandaları Baqum adlı kənddə 400 nəfər qaçıb məscidə doluşmuşdular. Ermənilər bu binanın pəncərələrindən əl bombaları atdılar və binanın hər tərəfinə od vurub yandırdılar. 1919-cu ilin fevralında Nəriman Nərimanov Daşnaq xəyanətkarlığı haqqında demişdir. "Daşnaqlar əllərində "böyük Ermənistanın xəritəsi və geniş proqramı Peterburqda əyləşib "Böyük "Ermənistan" yaratmaqla məşğul idilər. Hətta gürcü millətçiləri belə, daşnaqların bu həyasız hərəkət tərzindən dəhşətə gəlmişdirlər... Bütün inamla bildirirəm ki, Rusiyada o zaman mövcud olan milli partiyaların heç biri daşnaklar qədər xəyanətkar mövqe tutmamışlar. Əgər düşmən səninlə mübarizədə üzbəsurət dayanırsa, o, əleyhdar üçün o dərəcədə təhlükəli deyil. Lakin düşmən zahirdə səninlə oyun oynayır, ürəyində isə özünün vəhşi və satqın fikirlərini daşıyırsa, belə düşmən təhlükəlidir və ona qarşı ehtiyatlı olmaq gərəkdir... Qolitsin dövründə daşnaklar inqilabçı partiya sayılardı. Vorontsov-Daşkov zamanında isə onun ayağını öpənlər ən qəddar əks-inqilabçı idilər. Səbəbi də bu idi ki, Vorontsov onlara vəd etmişdir ki, müharibədən sonra "Böyük Ermənistan" yaradacaqdır. Ancaq türklər Sarıqamışda qələbə çalandan sonra daşnakların Tiflis şəhərindəki rəhbəri Xatisov (Xatisyan) qorxuya düşüb türklərlə dostluq üçün zəmin hazırlamağa başladı: daşnakların bu əlaməti indi də durur. Əgər Qafqazda Sovet quruluşu baş tutsa, daşnaklar dərhal öz maskalarını dəyişəcəklər və bu dəfə komonist olub Azərbaycanda və Gürcüstanda iş başına keçəcəklər... "(ADR, tarix, ictimai-siyasi və ədəbi-məđni həyat. Azərbaycan Dövlət Nəşriyyatı Poliqrafiya Birliyi. Bakı, 1992, səh.40). 1917-ci il oktyabr çevrilişi rus müstəmləkəçiliyinə yeni qüvvə verdi. Qafqaz cəbhəsindən dönən rus əsgərləri bolşeviklərin fitnəkarlığı sayəsində Baklya hərəkət etdilər. Rus əsgərləri aclıq və tökülmüş vəziyyətdə Bakı Soveti qulluğunda olmağı əsas tuturdular. Hərbi İnqilab Komitəsi Tiflisdən çıxarılıb Bakıya gətirildi. I Dünya müharibəsindən geri dönən 8 min silahlı erməni birləşmələri, eləcə də daşnaklardan ibarət 20 minlik silahlı qüvvə Bakıda yerləşdirildi. Sonradan həmin daşnak qüvvələri Bakıda və Azərbaycanın bölgələrində kütləvi şəkildə azərbaycanlıların qırğınlarını törətmişlər.

## Ermənilərin Üçkilsəyə köçürülməsi

Ermənilərin Azərbaycan ərazisində məskunlaşması prosesi 1441-ci ildə erməni katolikosluğunun Kilikiyadan Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisi olan Üçkilsəyə köçürülməsindən sonra başlanmışdır. Ermənilərin İrəvan torpaqlarını hansı vasitələrlə ələ keçirmələri haqqında Madendaranda (əslində, Mətndaran-əlyazma saxlanan yer) qorunan 1687-ci ilə aid tarixi sənəddə göstərilir ki, biz (yeni ermənilər) Azərbaycan türklərinə məxsus olan torpaqları "  Ya satın alır, ya işğal edir, ya sahibinin əlindən çıxarır, ya rüşvət verib alır, ya bəxşiş kimi əldə edir, ya da zorla ələ keçiririk".

Rusiya ermənilərdən bir alət kimi istifadə etmək üçün onların Qafqazda yerləşdirilməsində xüsusi fəallıq göstərmişdir. Bununla Rusiya Cənubi Qafqazda möhkəmlənmək və özünün gələcək işğalçılıq planlarını reallaşdırmaqdan ötrü mövcud Türkmənçay və Ədirnə müqavilələrinin şərtlərinə istinad edərək erməniləri az bir vaxt ərzində İran və Osmanlı imperiyaları ərazilərindən tam şəkildə Şimali Azərbaycana köçürməyə başladı. Bununla da, Rusiya İran arasında bağlanmış Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə, rus çarizminin təkidi ilə İranda yaşayan ermənilərin Azərbaycan ərazisinə köçürülməsi rəsmiləşdirildi.

1829-cu il senyabrın 2-də Osmanlı imperiyası ilə Rusiya arasında imzalanmış Ədirnə sülh müqaviləsinin 13-cü maddəsinə əsasən, Osmanlı ərazisində yaşayan ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsinə başlanıldı. Ermənilərin bu ərazinin yerli əhalisi deyil, gəlmə olduqlarını başqa xristian qaynaqları ilə yanaşı, elə erməni mənbələri də təsdiqləyir.





## Türkmənçay müqaviləsi və I Nikolayın "erməni vilayəti" yaradılması barədə fərmanı

Türkmənçay müqaviləsinin imzalanmasının (1828-ci il 20 mart) ertəsi günü rus çarı I Nikolay "erməni vilayəti" yaradılması barədə fərman verdi. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə, İran hökuməti müharibə vaxtı öz dövlətinə xəyanət edərək ruslara qulluq etmiş şəxslərin (əsasən, ermənilərin) Rusiya işğalı və tabeliyində olan torpaqlara köçürülməsinə əngəl törətməməli idi. Belə bir vaxtda - 1827-ci ilin mayında rus generalı Paskeviçin xüsusi tələbnaməsi əsasında ermənilər arasında nüfuz sahibi olan polkovnik Lazarev (Qazaros Lazaryan) köçürülmə işlərinə rəhbərlik etmək üçün Təbrizə komendant təyin edildi.Rus ordularının Təbrizə basqını zamanı (13 oktyabr)Lazarevin çağırışından riqqətə gələn ermənilər yenə də xəyanət edərək Təbrizin darvazalarını rus ordusunun üzünə açdılar.





Köçürülən kasıb erməni ailələrinə kömək etmək üçün rus dövlətinin xəzinəsindən 25 min rubl gümüş pul ayrılmışdı.1828-ci ildekabrın 24-də Lazarevin Paskeviçə yazdığı yekun hesabatında göstərilirdi ki, köçürmə işi 1828-ci il fevralın 26-da başlamış və iyunun 11-də başa çatmışdı. Lazarev 1828-ci il martın 9-da Paskeviçə yazdığı raportunda qeyd edirdi ki, artıq 4500 erməni ailəsi köçürülərək Araz çayının İran tərəfindəki sahilinə gətirilmişdir.

1828-ci il mayın 26-da Gürcüstandakı baş qərargah rəisinə təqdim edilən raportda isə bildirilirdi: "Rusiyaya məxsus olan vilayətlərə xristianların köçürülməsi müvəffəqiyyətlə aparılır .Artıq Qarabağda 279, İrəvan vilayətində isə 948 ailə məskunlaşdırılmışdır. Polkovnik Lazarevin vədinə əsasən, köçürülən ailələrin sayı 5 minə çatdırılmışdır."

İ.Şopenin yazdığına görə, İrandan köçürülən ermənilərdən yalnız 366 ailə (1715 nəfər) İrəvan şəhərinin özündə, 265 ailə (1110 nəfər) Naxçıvan şəhərində və 36 ailə (482 nəfər) isə Ordubad ərazisində məskunlaşdırıldı. Xaricdən köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirildi. Beləliklə, İrəvan əyalətində 4559 ailə (23588 nəfər), Naxçıvan ətrafında 2137 ailə (10652 nəfər), Ordubad dairəsində 250 ailə (1340 nəfər) yerləşdirildi.

Nəticədə, əzəli Azərbaycan torpaqları hesabına yaradılan qondarma erməni vilayətinə 35560 nəfərdən ibarət erməni ailəsi köçürüldü. Lazarevin hesabatından məlum olur ki, üç ay yarım ərzində İran ərazisindən 8249 xristian - erməni ailəsi İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdür ki, bu da ən azı 40 min nəfər deməkdir. Həmin illərdə Rusiya dövlətinin xəzinəsindən 14 min manat qızıl və 400 min manat gümüş pul xərclənmişdi. Bununla yanaşı, rus tədqiqatçısı N.Smirnov İrandan 90 min erməninin köçürülərək Azərbaycan ərazilərində məskunlaşdırıldığını yazır.

Tarixi hadisələrin sonrakı gedişi bir daha sübut etdi ki, İran erməniləri Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə - yeni vətən yaratmaq məqsədilə köçürülmüşdür. Bu işləri həyata keçirməkdə xüsusi canfəşanlıq göstərən hərbçilər və din xadimləri rus çarizmi tərəfindən mükafatlandırılırdılar.

## İrəvan xanlığından didərgin salınan azərbaycanlılar

İkinci Rusiya-İran müharibəsində qələbə çalan rus qoşunları 1828-ci il iyunun 14-də Paskeviçin komandanlığı altında Gümrü yaxınlığında 12 minlik qoşunla Arpaçaydan Şərqi Anadoluya hücuma başladı. İyunun 23-də Qars qalası işğal edildi. Rus qoşunları iyulun 24-də Axalkalakini, avqustun 15-də Axıskanı, 22-də Ərdahanı, 28-də Bəyazidi işğal etdi.

1829-cu ilin yazında müharibənin yenidən alovlanması nəticəsində rus qoşunları Ərzurumu, daha sonra Muşu, Oltunu və Bayburtu işğal etdilər. İrəvan xanlığından - öz ata-baba yurdlarından didərgin salınan azərbaycanlılar ən çox Şərqi Anadoluda sığınacaq tapmışdılar. Rus qoşunlarının Şərqi Anadoluya hücumları zamanı qırğınlara və yenidən bu ərazidən köçkün halına düşməyə düçar olan yenə də azərbaycanlılar idi. Onlar bu dəfə də, əsasən, Türkiyənin içərilərinə köçməyə məcbur oldular.

1829-cu ilin avqustunda rus qoşunları Balkan ətrafından İstanbula irəliləyərkən II Sultan Mahmud Rusiya dövlətinə barışıq təklif etdi. Bu addım 1829-ci il sentyabrın 2-də Ədirnə müqaviləsinin bağlanması ilə nəticələndi. Axalkələk qalası Axıska şəhəri Rusiyaya birləşdirildi. Ruslar tərəfindən işğal edilmiş Qars, Trabzon, Bəyazid və Ərzurum paşalıqları isə Türkiyəyə qaytarıldı.

Ədirnə sülhünün 13-cü maddəsinə əsasən, Türkiyənin işğal olunmuş torpaqlarındakı ermənilərə 18 ay ərzində daşınan əmlakları ilə bərabər Rusiya təbəliyinə keçmək hüququ verilmişdi. Türkiyədə yaşayan erməniləri yenicə işğal olunmuş Azərbaycan ərazilərinə köçürmək, həmçinin, Türkiyə ilə sərhədboyu ərazilərdə də ermənilərin say üstünlüyünü təmin etmək məqsədilə 1829-cu il oktyabrın 10-da Paskeviç rus imperatoru I Nikolaya raport yazıb Ərzurumda və Qarsda yaşayan ermənilərdən 10 min nəfərin Gürcüstanda və "erməni vilayətində" yerləşdirilməsinə icazə istədi.1829-cu il noyabrın 18-də hərbi nazir Çernişev Paskeviçə çar I Nikolayın onun təklifini bəyəndiyini bildirdi.

## Rus general-mayoru N.Bercmanın ermənilərin Qarsdan Gümrüyə yola salınmasında iştirakı

Türkiyənin Qars və onun ətrafından köçürülən ermənilər yaşadıqları ərazilərin iqliminə uyğun olaraq Ələyəz (Alagöz) dağı ətrafındakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi. Rus general-mayoru Bercman Qarsdan Gümrüyə yola salınan 400 erməni ailəsinə sənəd təqdim etdiyini bildirirdi. İrəvan yaxınlığında Sərdarabad qalasında olan 270 ev həmin vaxt ermənilər tərəfindən zəbt edilmişdi. Bir qədər keçdikdən sonra M.Vladkin ermənilərin bu əraziyə köçürülməsi haqqında yazırdı: "İrəvan quberniyasında yaşayan ermənilərin əksəriyyəti buranın yerli sakinləri olmayıb,1828-1829-cu illər müharibəsindən sonra Türkiyədən bu ərazilərə köçürülmüşlər".

1830-cu il yanvarın 22-də Paskeviçin Çernişevə verdiyi məlumata görə, Qars və ətraf ərazilərdən köçən 2500 erməni ailəsi onun sərəncamına əsasən, yaşadıqları yerin iqliminə uyğun olaraq Ələyaz dağı ətrafında -Pəmbək distansiyasıdakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi. Türkiyədən köçürülən ermənilər Axıska, Pəmbək-Şorəyel və "erməni vilayətində" yerləşdirildi. Talış mahalı,Göyçə gölü ətrafı və Baş Abarana 14044 erməni ailəsi köçürülmüşdü. Ərzurumdan köçürülən 7288 erməni ailəsindən 500-ü, eləcə də Ərdahandan 67 erməni ailəsi Axıska paşalığı ərazisində, 1050 ailə Borçalı distansiyasında və Çalqa ətrafında, qalan 1305 ailə isə Pəmbək və Şorayel distansiyalarında yerləşdirilmişdi. Hesablama komissiyasının sayına görə, Osmanlı dövləti torpaqlarından 84 min nəfərdən artıq erməni və yunan köçürüldüyü məlum olur. Lakin 1831-ci il aprelin 24-də qraf Paskeviçin adına verilmiş əlahəzrət buyruğunda rus dövləti tərəfindən Türkiyə vilayətindən köçürülmüş xristianlar, yəni erməni və yunanlardan ibarət 14 mindən çox ailə (90 min nəfərə qədər) üçün 380 min gümüş pulun ayrıldığı bildirilirdi. İ.Şopenin apardığı siyahıya almanın nəticələrinə görə 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra "erməni vilayətinə" Türkiyədən 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürdü köçürülmüşdü. Rusiya imperatorunun fərmanı ilə "erməni vilayəti" yarandığı vaxt İrəvan əyalətində İrəvan, Sərdərabad, Şərur və Sürməli dairələri yaradıldı.

**İ.ƏLİYEV**

# Ermənilərin oyununun sonu: PSİXOZDAN AYILMA

*Azərbaycanın qələbəsi ilə nəticələnən müharibə bir halda ki, həm Rusiya, həm də Qərb üçün yeni iqtsiadi istiqamətlər formalaşdıra bilib, o zaman bütün proseslərin təkcə Moskvanın iradəsi altında baş verməməli olduğunu artıq Avropanın açıq şəkildə bəyan etməsi gözlənilən idi və belə də oldu. Artıq Avropa proseslərə marağını da gizlətmir. Məsələ burasındadır ki, indi Avropa artıq Ermənistanın maraqları deyil, özünün maraqları kontekstində məsələyə yanaşdığını gizlətmir və Ermənistanı dəstəkləməklə regionda mövcudluğunu, iştirakını bərpa etməyin artıq mümkünsüzlüyünü, eləcə də bunun doğru istiqamət və yol olmadığını da etiraf edir. Bu isə ondan xəbər verir ki, Ermənistanın oyunlarının sonu çatıb və artıq məğlubiyyəti qəbul etməkdən başqa çıxış yolu qalmır.*



Ermənistanın hər zaman mövqeyini dəstəkləyən Fransa prezidenti Emanuel Makronun Brüsseldə Azərbaycan Prezidenti cənab İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü xüsusilə diqqəti cəlb etdi. Bu görüş zamanı Fransa prezidentinin mövqeyi göz önündə idi və dərhal hiss olunurdu ki, Makron bu dəfə Paşinyanı dəstəkləmək niyyətində deyil. Hiss olunurdu ki, Makronun nə marağı, nə də həvəsi qalmayıb və ən azından xeyirsiz, uğursuz bir ölkəni və onun uğursuz liderini dəstəkləməkdən bezdiyi dərhal duyulurdu. Duyulurdu ki, Ermənistanı müdafiə etməklə Fransanın regiondakı maraqlarını qoruya bilməyəcəyini Makron yaxşıca anlayıb və dərk edib ki, Azərbaycanın ədalətli mövqeyinin, maraqlarının müdafiəsi Fransanın maraqlarına uyğun gələ bilər. Əks halda, bölgədən də, bu bölgədəki proseslərdən də kənarlaşacağını Fransa göz önünə almaq məcburiyyətində qala bilər ki, bunu Makron artıq anlayıb. Sözsüz ki, Makron Avropa İttifaqının belə artıq haqqın, ədalətin, yəni Azərbaycanın tərəfində olduğunu yaxşıca gördü və çox gümün ki, bu da Fransa liderinə dərs oldu. Ümid edirik ki, bütün bu proseslər ermənilər üçün də, baş nazir Paşinyan üçün də dərs oldu və reallıqları həminin qəbul etməsinin fonunda oyununun sonu çatdığını erməni cəmiyyəti anladı.

Brüsseldə Avropa İttifaqı rəhbərinin səsləndirdiyi bəyanat İrəvanın kapitulyasiyasının Qərb tərəfindən etirafı, yaxud, təsdiqi kimi qiymətləndiririlir ekspertlər tərəfindən. Bu bəyanat eləcə də Azərbaycan Prezidenti cənab İlham Əliyevin necə bir strateq olduğu barədə da Avrpanın birbaşa etirafı sayılır. Bəli, Azərbaycanın maraqlarına cavab verən məsələdə Brüssel ilə Moskvanın eyni şəkildə, özü də bir-birinin ardınca həmrəylik nümayiş etdirməsi diplomatiyamızın birmanalı olaraq qələbəsi hesab olunur. Bu həm də qələbəmizin qarşı tərəfə məcburi şəkildə həzm etdirilməsidir ki, ermənilər üçün də, Paşinyanın özü üçün də, məsələləri qızışdırmağa çalışan Ermənistan müxalifəti üçün də ən böyük zərbədən biri də məhz bu oldu. Bir növ, hansı cəbhədə, harada olmasından asılı olmayaraq, bütövlükdə ermənillərin hamısına "yox" deyildi və yerində oturduldu.

Əvvəla, zərbənin birincisi Paşinyana dəydi və indi erməni baş nazirin üz tutacağı yer belə qalmadığı çılpaqlığı ilə ortaya qoyuldu. Qərbin adamı kimi qəbul edilən Paşinyana elə Avropanın tən ortasında "yox" deyilməsi onun nəinki sığınacaq nöqtəsini dağıtdı, eyni zamanda kütlənin hədəfinə çevrilməsinə əsas yaratdı. Brüssel bəyanatı göstərdi ki, Paşinyanın "demokratik imic" yaratmaq cəhdlərinin fonunda, Avropa İttifaqı İrəvanı Avropa ailəsinin üzvü hesab etmədiyini gizlətmədi. Ermənistan daxilində belə Paşinyanın siyasi manevr etmek imkanlarını minimuma endirildi. Erməni ictimaiyyəti ölkənin siyasi rəhbərliyinin nağıllarına artıq inanmayacağı zərrə qədər şübhə doğura bilməz. Paşinyanın guya "Rusiyanın təzyiqi altında güzəştə getməsi" barədəki uydurmalarının da sonu çatdı və bu vəziyyət onun siyasi fəaliyyətinin də sonu ola bilər.

Rəsmi İrəvanın münaqişədən guya "yarı uduzmuş vəziyyətdə" çıxması barədə fikir formalaşdırmaq ümidlərini də Brüssel görüşü tamamilə puça çıxardı. Hərhansı formada statusun verilməsi barədə ümumiyyətlə məsələ qaldırılması İrəvan üçün nəinki ciddi mesaj, çox böyük bir zərbə oldu. Brüsseldə konkret olaraq, ermənilərin məğlubiyyətinin qəbul edildiyini əks etdirən atmosfer göz önündə idi ki, bu da Ermənistanın baş nazirinin solğun və məyus sifətində özünü biruzə verirdi. İndi Paşinyan özü başda olmaqla hansısa ermənin məğlubiyyətlərini ört-basdır etmə cəhdləri zərrə qədər mənası qalmayıb. ATƏT-in Minsk Qrupundan söhbət belə açılmaması da erməni cəmiyyəti üçün çox ağrılı oldu.

Hərtərəfli sülh müqaviləsi imzalamaq çağırışı, ölkələrin suverenliyinə hörmətlə yanaşmaq şərtilə kommunikasiya infrastrukturlarının bərpası məsələsi də Brüsseldə vurğulandı ki, bu da nəticə etibarı ilə Ermənistana dolayısı ilə təsir olunması deməkdir. Daha dəqiq desək, bu, ermənilərin boyun qaçırmaq istədiyi, yaxud, uzatmağa çalışdıqları məsələləri dərhal həll etməsi üçün Ermənistana verilən mesajdır. "Ölkələrin suverenliyinə hörmətlə yanaşılması" şərti özü əslində, Azərbaycanın ərazi bütövlüyünü tanımasının diktə olunması kimi qəbul olundu erməni cəmiyyətində. Bəyanatda kommunikasiyaların açılması məsələsinə toxunulması da öz növbəsində diqqət çəkən məqamdır və Brüsselin belə Zəngəzur dəhlizi layihəsinin tərəfdarı olduğunu təsdiqləyir.

Əlbəttə ki, "münaqişə irsinin aradan qaldırılması" tövsiyəsi də sıradan bir hal, məqam deyil və əslində, dərk etmiş olsalar bundan





ermənilər öz nəticələrini də çıxarmalıdırar. Nəzərə almaq lazımdır ki, erməniləri qızışdıran və dırnaqaraası, qondarma "erməni problemi" adı altında məsələni süni şəkildə bu zamana qədər körükləyən, bununla da bölgədəki proseslərə müdaxilə etmək şansı qazanacağını zənn edən də Qərb olub və indi belə bir tövsiyyənin verilməsi Qərbin süni yaratmış olduğu "erməni problemi"ndən əl çəkdiyini təsdiqləyir. Erməni xalqı nəhayət, gec də olsa anlamalıdır ki, yüzillər boyu süurlarına yeridilən, əslində isə Qərbin geosiyasi maraqlara xidmət edən anti-türk təbliğatı bu təbliğatı yeridən Qərbin özünün belə artıq maraq dairəsində deyil. Artıq Avropanın maraqları dəyişib və belə olan halda ermənilərin anti-türk əməlləri dəstəklənməyəcək və bunun fonunda da ermənilərin nəyə isə nail olacaqlarına ümid bəsləməmələri tamamilə ağılsızlıqdır ki, bunu özləri ən tez zamanda dərk etməlidirlər. Dərk etməlidirlər ki, dəyişən maraqlara görə də erməni düşmənçiliyinə artıq ehtiyac qalmır və onlar kütləvi psixozdan ayılmaq məcburiyyətindədirlər.

Bəli, Qərbdən imdad diləyən Ermənistan oyunun sonuna gəldi. Fransa da daxil olmaqla heç bir dövlət sözdə belə Ermənistanı dəstəkləmədi, əksinə, ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmətlə yanaşdıqlarını dəfələrlə ifadə etdilər. Təkcə, münaqişə irsinin aradan qaldırılmasına çağırış, cənab Prezidentin "Qarabağ münaqişəsi bitib" bəyanatının Avropa İttifaqı tərəfindən qəbul edilməsi, Ermənistan üçün oyunun sonu deməkdir. Bəli, erməni arzuları Brüsseldə dəfn edildi.

Ümid edirik ki, Nikol yəqin, gec də olsa başa düşdü ki, KTMT, NATO, ya Avropa İttifaqı, yaxud da hansısa beynəlxaq təşkilat Ermənistan ordusu əvəzinə onun qonşuları ilə müharibə aparmaq, ermənilərin yerinə döyüşmək üçün yaradılmayıb. Hər birinin öz maraqları, strategiyası var və ən azından imicinin qorunması üçün sonda beynəlxalq hüququn tərəfində, ədalətli mövqedə olan tərəfin, Azərbaycanın yanında olmaq məcburiyyətində qaldıqları da güman edirik ermənilər üçün aydın oldu. Özündən başqa hamıya arxayın olan və sonunda çıxılmaz vəziyyətdə, məğlub durumda qalan işğalçı Ermənistanın qonşularla normal münasibət qurmaqdan başqa yolu olmadığının ermənilər indi fərqində olduqlarına ümid edirik. Ümid edirik ki, Brüssel görüşündən sonra belə bir doğru qənaətə gəldilər. Bildilər ki, Brüssel görüşü reallıqların təzahürü, haqqın, ədalətin qələbəsi oldu. Bu görüş ermənilərin oyunun sonu, eləcə də ermənilərin psixozdan ayılması üçün tutarlı, təsirli bir görüş oldu.

**İnam Hacıyev**

# ZƏNGƏZUR DƏHLİZİ: süni maneələr, yalan iddialar...

***Ermənistanda ciddi müzakirələrə və populist çıxışlara səbəb olub. Bütün erməni cəmiyyətinə və hakim dairələrinə yalnız bir fikir hakim kəsilib: "Zəngəzur Ermənistan ərazisidir oradan Naxçıvana dəhliz vermək yolverilməzdir". Ermənilərin "Zəngəzur tarixi erməni torpaqlarıdır" deyimindən boylanıb ən yaxın tariximizə belə nəzər salanda Zəngəzurun ermənilərə heç bir aidiyyatının olmadığı görünür.Tarixən heç vaxt Zəngəzur ərazilərinin ermənilərə heç bir aidiyyatı olmayıb. Rusiyanın işğalına qədər ermənilərin mövcudluqlarına, heç bir izlərinə belə rast gəlinmir.***





Быть может пройдут года и цивилизация вновь вернется сюда? Хочется в это верить, но есть слишком много но...

Son 100 ildə Zəngəzurda da, Qarabağda olduğu kimi ermənilər tərəfindən mütəmadi olaraq azərbaycanlılara qarşı talanlar, qarətlər, qətllər, soyqırımlar törədilib ərazi etnik təmizləməyə məruz qalıb. Belə ki, erməni millətçiləri birinci Qarabağ müharibəsindən xeyli öncə, indiki Ermənistan ərazisində öz mövcudluğunu qoruyub saxlayan Zəngəzurun 100-dən çox inzibati yaşayış mərkəzlərinin, onlarla inzibati binaların və yaşayış evlərinin, tarix və mədəniyyət abidələrini və monumental heykəltəraşlıq nümunələrinin, şose və dəmiryol infrastrukturlarını tamamilə dağıdıb yararsız hala saldılar. Zəngəzur "bizimdir" deyən əhalinin, bu dağıntıları nəyə görə etdiklərinin isə indiyədək izahını verə bilmirlər.

1828-ci il Rusiyanın işğalından 33 il sonra, məhz Rusiyanın təşəbbüsü ilə Zəngəzur vilayəti Zəngəzur qəzasına çevrildi. Qəzanın əmlakının qiymətləndirilməsi üçün Mokritski Andrey, Orlov İvan, İskəndərov İvan, Ağasarov Cahangirdən ibarət qiymətləndirmə komissiyası yaradıldı. Təbii ki, bu komissiyada da bir erməni soyadına rast gəlmək olmur. O zaman sual olunur, əgər ərazi ermənilərə aid olubsa, nədən belə məsul bir iş üçün yaradılan komissiyanın tərkibində bir nəfər də olsun erməni olmayıb?

186-ci ildə yaradılan Zəngəzur qəzası: - Şimali Azərbaycan torpaqlarında Rusiyanın yaratdığı ilk inzibati ərazi vahidlərindən biri olmuşdur. Zəngəzur qəzası Azərbaycan ərazisi kimi, 1867-ci ildə Azərbaycanda yaradılan Yelizavetopol (Gəncə) quberniyasının tərkibinə verildi və Zəngəzur Rusiyada Sosialist İnqilabının qələbəsinin ilk illərinə qədər yəni (1920-ci ilə qədər) Gəncə Quberniyasının tərkibində qaldı. Yeni Zəngəzur 1920-ci ilə qədər Azərbaycan ərazisinə daxil idi. O dövrdə Zəngəzurda 149 türk kəndi, 91 kürd kəndi və məskunlaşdırılmadan sonra yeni yaradılan 81 erməni kəndi var idi. Bu tarixi həqiqətlər erməni anlamından çox uzaqdır. Ermənilər bu faktları eşitmək belə istəmirlər. Azərbaycanda 1920-ci ildə Sovet Hakimiyyəti qurulduqdan sonra Zəngəzurun Qafan, Mehri, Gorus və Qarakilsə bölgələri yenicə yaradılan Ermənistan vilayətinə birləşdirildi. Ruslar tərəfindən İranın Gorus əyalətindən gətirilib Zəngəzurda "müvəqqəti" məskunlaşdırılan fars mənşəli ermənilərin toplum halda yaşadıqları Gorus adlı qəsəbə, Zəngəzur qəzasının mərkəzi elan edildi. Zəngəzur Qəza İcraiyyə Komitəsinin sədri vəzifəsinə əslən indiki Laçın rayonunun Əhmədli kəndindən olan Ocaqqulu Musayev təyin edildi. Ocaqqulu Musayev, 1896-cı ildə Laçın rayonunun Əhmədli kəndində anadan olub. 1918-ci ildə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilib və Zəngəzur qəzasının ərzaq komissarı kimi fəaliyyət göstərib. 1920-ci ildə Zəngəzur qəzası yaradılanda, Zəngəzur Qəza İcraiyyə Komitəsinin sədri vəzifəsinə təyin edilib. Ocaqqulu Musayev 1922-ci ildə ömrünün gənc çağlarında Gorus şəhərində vəzifə başında ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib.

Bu hadisə Azərbaycana azərbaycançılığa, türkə türkçülüyə qarşı ədavətdən, kindən, nifrətdən, düşmənçilikdən irəli gəldiyini göstərirdi. İrandan gətirilib Zəngəzurda məskunlaşdırılan gəlmə bir toplumun nümayəndələri Sovet Hökumətinə meydan oxuyaraq, hökumətin yüksək vəzifəyə təyin etdiyi qanıyla canıyla torpağına bağlı olan tanınmış bir şəxsi vəzifə başında qətlə yetirirlər və cəzasız qalırlar. Məhz bu cəzasızlığın nəticəsi idi ki, ermənilərin torpaq iddiaları, törətdikləri soyqırımlar bitib tükənmək bilmirdi.









İndi "Zəngəzur dəhlizi" layihəsinə etiraz edən ermənilər, hətta öz ağsaqqallarından soruşsalar belə bilərlər ki, 1936-cı ildən 1992-ci ilə qədər Zəngəzur dəhlizi Ermənistanın deyil, Azərbaycanın nəzarətində olub.

Yeni tariximizdən bizə məlumdur ki, Mehri rayonu Sovet dövrü Azərbaycanın Ermənistan üzərindən nəqliyyat dəhlizi rolunu oynayıb. Belə ki, 1936-cı ildə Bakıdan çıxan ilk qatar Mincivan - Culfa dəmir yolu xətti ilə Qafanın mis mədənlərinə gəldi. Bundan sonrakı dövrlərdə Bakı-İrəvan, Moskva-Naxçıvan-Tehran marşrutları ilə sərnişin və yük qatarları bu dəhliz vasitəsi ilə müntəzəm olaraq SSRİ-nin süqutuna qədər fəaliyyət göstərdi. İndi bütün erməni vətəndaş cəmiyyəti və Ermənistan rəhbərliyi Zəngəzur dəhlizinin Ermənistana məxsusluğunu iddia edir. Lakin Ermənistanın və Rusiyanın Dövlət Arxivlərində olan sənədlər sübut edir ki, hətta Sovet dövründə belə, Mincivan-Ordubad nəqliyyat dəlizinə məxsus bütün infrastruktur Azərbaycana məxsus olub. Dəhliz Araz çayı boyunca İranla həmsərhəd olduğuna görə, bu əraziyə ermənilər xüsusi icazələri olmadan buraxılmırdılar. Ermənilər heç vaxt bu dəhlizə sərbəst şəkildə girib çıxa bilmirdilər. SSRİ Xüsusi Xidmət Orqanları yalnız xüsusi buraxılışı olanlara Mehriyə gəlməyə icazə verirdilər.

Zəngəzur dəhlizi bütün tarixi boyu Azərbaycanın nəzarətində olub. Stansiyalara və bütün infrastrukturlara nəzarət, qatarlara satılan biletlər Bakıya məxsus idi. Qatarların hərəkət cədvəlini və stansiyaların iş qrafikini Bakı təşkil edirdi. Dəhlizin təhlükəsizliyini SSRİ Sərhəd qoşunları həyata keçirirdi. Dəhlizdə Qatarların fəaliyyəti 1991-ci ilə qədər davam etdi. 1988-ci ildən Ermənistanda baş qaldıran qanunsuz silahlı dəstələr qatarların hərəkətinə mane olmağa başladılar. Belə ki, bu silahlı dəstələr sərnişinlərə xəsarət yetirir, onları soyur, yüklərini əllərindən alaraq mənimsəyirdilər. Son yük qatarı bu dəhlizdən 1992-ci ildə Arazboyu keçərək öz fəaliyyətini sona çatdırdı. Naxçıvan blokadaya düşdü.

Dəhlizdə hərəkət dayandırıldıqdan sonra, dəhliz boyu Azərbaycana məxsus stansiyalar və depolar qarət olunaraq yandırıldı. Erməni seperatçıları Mincivan-Culfa, Ağdam-Əsgəran-Xankəndi dəmir yolu magistralındakı dəmiryol reyslərini, dəmir dirəkləri, məftilləri və hətta bütöv vaqonları İranın İsfahan və digər şəhərlərdəki metaləritmə zavodlarına satırdılar. Mehri stansiyasından tapılan biletlər, stansiyanın aylıq, illik hesabat sənədləri göstərir ki, bu stansiyada aparılan işlərin Ermənistana aidiyyatı olmamışdır. Nəqliyyat dəhlizində yerləşən bütün infrastrukturlara Azərbaycan cavabdehlik daşımışdır. İndi Zəngəzur Dəhlizinin açılmasına maneçilik törədən erməni başbilənlərinə belə bir sual ünvanlayıram: Zəngəzur dəhlizi Ermənistan ərazisidirmi? Elə isə bəs onda niyə dağıdıb xarabalığa çevirdiniz?

***Faiq İsmayılov***
***AMEA A.Bakıxanov adına***
***Tarix İnstitutunun əməkdaşı***

# Medianın inkişafına təkan verəcək növbəti qanun

**Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" tarixi fərmanı "Media haqqında" qanunun qəbuluna yol açdı**

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi və təşəbbüsü ilə ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatın bütün sahələrində islahatlar gedir. Və bu gün mətbuat sahəsində geniş islahatlara başlanılması və bu islahatların davamı olaraq "Media haqqında" qanun layihəsinin hazırlanıb, geniş müzakirəyə çıxarılması bir daha dövlətin medianın inkişafına göstərdiyi diqqət və qayğısının göstəricisidir. Dekabrın 10-da Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında "Media haqqında" qanun layihəsinin ictimai müzakirəsi başlayıb və dekabrın 14-də parlamentin keçirilən plenar iclasında "Media haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb. Qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 13-cü bəndlərinə uyğun olaraq, media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Layihə 9 fəsil, 78 maddədən ibarətdir. Müzakirələr zamanı deputatlar müxtəlif fikir və rəylərini bildiriblər. Layihə müzakirələrdən sonra səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

Yeni qanunda qeyd edilib ki, Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən jurnalist vəsiqəsi veriləcək. Jurnalist vəsiqəsinin formasını, onun verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək. Jurnalist vəsiqəsinin etibarlılıq müddəti 3 (üç) ildir. Jurnalist vəsiqənin etibarlılıq müddəti bitdiyi gündən ən geci 3 (üç) iş günü müddətində həmin vəsiqəni müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təhvil verməklə yenidən jurnalist vəsiqəsinin alınması üçün müraciət etmək hüququna malikdir.



**Mediasının inkişaf etdirilməsi dövlətin qarşıya qoyduğu əsas prioritetlərdəndir**

Azərbaycan mediasının inkişaf etdirilməsi hazırda dövlətin qarşıya qoyduğu əsas prioritetlərdəndir. Azərbaycan dövləti üçün milli informasiya məkanında davamlı inkişaf və irəliləyişə nail olmaq məsələsi də daim ön planda olub. Ancaq tarixi qələbəmizlə başa çatan Vətən müharibəsindən sonra görülən əməli işlər dövlətin bu inkişafa xüsusi diqqətini növbəti dəfə ortaya qoyub. Bu mənada 12 yanvar 2021-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanan "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərman böyük önəm daşıyır.

Sözügedən sənədlə Medianın İnkişafı Agentliyinin və "Media haqqında" qanun layihəsinin hazırlanması barədə qarşıya tapşırıq qoyuldu. Odur ki, media sahəsindəki islahatlar və onun tərkib hissəsi olan "Media haqqında" qanun layihəsinin hazırlanması dövlətin siyasi iradəsinin təcəssümünə çevrildi. Atılmış addımlar isə, ilk növbədə, ölkəmizdə media sahəsindəki problemlərin həllinə, medianın inkişafı üçün daha geniş imkanların yaradılmasına hədəflənib.

Dünya praktikasında medianın inkişafı üçün qanunların işlək və dövrün çağırışlarına cavab verdiyi mühitlər daha əlverişli sayılır. Ölkəmizdə qəbul edilməsi gündəmdə olan "MEDİA haqqında" yeni qanun da məsuliyyətli medianın inkişafına təkan verəcək mütərəqqi bir addım kimi qarşımıza çıxır. Bu qanun layihəsi Azərbaycan mətbuatının tarixində yeni mərhələyə start verilməsi anlamına gələcək və inkişaf perspektivləri baxımından yeni imkanlar təmin edəcək. Sözügedən proses həmçinin yeni reallıqları, çağırış və prosesləri özündə əks etdirir desək yanılmarıq. Çünki Azərbaycanda media sahəsində fəaliyyətlə bağlı qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" qanun 22 il bundan əvvəl qəbul edilib. Dünya tarixi üçün qısa sayılsa da, ümumən digər bütün sahələrdəki inkişafı və yenilikləri nəzərə aldıqda, sözügedən müddət olduqca böyük müddət hesab olunur. Buna görə də, 1999-cu ildə qəbul olunmuş hazırkı qanuna bu günə qədər 79 dəfə dəyişiklik edilməsi zərurəti olub. Lakin buna baxmayaraq, hələ də müasir dövrün çağırışlarını tam olaraq qarşılamır. Bu mənada yeni qanun layihəsinin hazırlanması dövlətin ölkə mediasının müasir tələblər əsasında inkişafına təkan vermək istəyini ortaya qoyur.

**"Media haqqında" qanun xalqla, ictimaiyyətlə media arasında inamın, etimadın gücləndirilməsini təmin edəcək**

"Media haqqında" qanun layihəsi ilə birlikdə ölkəmizdə media subyektlərinin dəqiq təsnifatı və eyni zamanda jurnalistlərin sosial portreti müəyyən ediləcək. Belə ki, yeni qanun jurnalist peşəsinin ciddi mahiyyət qazanmasına təkan verəcək. İctimaiyyət arasında jurnalistika sahəsinə və ümumən jurnalistlərə qarşı formalaşan mənfi təsəvvürlərin ləğv olunmasına öz töhfəsini verəcək. Başqa sözlə ictimaiyyətlə media arasındakı qarşılıqlı etimadın güclənməsini təmin edəcək. Yeni layihə təkcə media ilə ictimaiyyət arasındakı münasibətlərə təsir göstərməyəcək, eyni zamanda, dövlətlə münasibətlərdə hüquqi mənzərənin konkretləşməsinə təsir göstərəcək. Bir sözlə, bu qanun ölkə jurnalistikasında yeni bir mərhələ olacaq, mediya və mediya işçiləri üçün yeni imkanlar yaradacaq, onların səmərəli fəaliyyətinə təkan verəcək.Yeni qəbul ediləcək qanun jurnalistikaya və eyni zamanda, jurnalistlərə qarşı formalaşan neqativ təsəvvürləri aradan qaldıracaq. "Media haqqında" qanun xalqla, ictimaiyyətlə media arasında inamın, etimadın gücləndirilməsini təmin edəcək və heç bir əsası olmadan özünü jurnalist adlandıran, özlərini jurnalist kimi təqdim edən və jurnalistikadan heç bir anlayışı olmayan insanların qarşının alınmasına xidmət edəcək.

Beləliklə, "MEDİA haqqında" yeni qanun Azərbaycan mətbuatı üçün yeni üfüqlər açacaq, milli media məhsulunun istehsalını stimullaşdırmaqla, yerli medianın inkişafına təkan verəcək, informasiya təhlükəsizliyini qorumaqla yanaşı, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına şərait yaradacaqdır.

***RƏFİQƏ HÜSEYNOVA***



# Yeni dünya müharibəsi başlayır?



## EKSPERT AÇIQLADI

***"The Wall Street Journal" qəzetinin eksperti Endryu Mistanın populist və daha cəmiyyətlərə hesablanmış yazısı müasir dövrümüzün reallıqları ilə üst-üstə düşmür.***

Ekspertin qeyd etdiyi Amerika və qarşısında hədəf kimi gördüyü Çinin qarşı-qarşıya gəlmək imkanları, ABŞ və Çinin hərbi imkanlarının müqayisəsinin təhlili, iqtisadi vəziyyətinin təhlili, ABŞ və Çin cəmiyyətlərinin müharibəyə hazır olmaqla bağlı psixoloji vəziyyətinin təhlili onu deməyə imkan verir ki, dövrümüz üçün ABŞ və Çin arasında ciddi qarşıdurmanın baş verməsi imkanları kifayət qədər zəifdir. Bu ilin mart ayında ABŞ keçici dövr üçün qəbul etdiyi hərbi doktrinasında əsas hədəf olaraq Çin və Rusiyanı qeyd etdi. Həmin sənəddə də açıq şəkildə bəyan edilirdi ki, dünya üzrə ABŞ maraqlarının təmin olunması üçün əsas təhdidlər məhz Çin və Rusiyadır. Ona görə bütün imkanlardan istifadə etməklə Çin və Rusiyadan gələ biləcək təhlükələr yerindəcə məhv edilsin. Lakin bu istiqamətdə hərbi müdaxilə deyil, xüsusilə iqtisadi sanksiyaların tətbiq edilməsi və rəqiblərin müəyyən iqtisadi problemlərlə üzləşdirilməsi əsas vasitə kimi götürülürdü". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib.

Ekspertin sözlərinə görə, bundan öncəki administrasiya dövründə də Çinə və Rusiyaya qarşı çox ciddi iqtisadi sanksiyalar həyata keçirilirdi: "Hətta, Çin məhsullarının Amerika bazarlarına daxil olması üçün tələb olunan gömrük rüsumları da dəfələrlə artırılmışdı. Bunlar Çin iqtisadiyyatına kifayət qədər zərbə vura biləcək addımlar idi. Baş verən hadisələr əslində onu göstərir ki, rəqibin zəiflədilməsi baxımından Tramp nə qədər ciddi siyasi xadim olmasa da onun administrasiyası Bayden administrasiyasından daha ağıllı komanda idi. Son dövrlər Bayden administrasiyasının atdığı addımlar reallıqlardan uzaq, populist xarakteri daşıyır. Məsələn, Ukrayna ətrafında baş verən hadisələr və ABŞ-ın münasibəti, Putin və Bayden arasında keçirilən görüşlərdə Baydenin açıqlaması göstərir ki, hətta Rusiyaya qarşı belə Amerika açıq şəkildə müdaxilə etmək və açıq şəkildə proseslərdə iştirak etmək istəyində deyil. Əslində, son illər Amerikanın yanaşması daha çox "Seyid Əhməd Əli ilə ilan tutmaq" siyasətinə uyğundur. Yeni, başqa dövlətləri Çin və Rusiya ilə qarşı-qarşıya gətirməklə öz siyasətlərini həyata keçirməyə çalışırlar. Bu ilin sentyabr ayının 16-da Amerika, İngiltərə və Avstraliya arasında imzalanmış "AUKUS" hərbi razılaşmasının başlıca hədəfi məhz Çin götürülür. İngiltərə və Amerikanın hərbi dəstəyi vasitəsilə bu mübarizədə başlıca rol oynayacaq qüvvə kimi Avstraliya göstərilir. Bundan əlavə ABŞ-ın Çinə qarşı müdaxilə etmək imkanları indiki dövrdən daha çox olduğu vaxtlar olub, lakin ABŞ bundan istifadə etməyib. Məsələn 2000-ci illərin əvvəllərindən başlayaraq Çinin iqtisadi qüdrətinin yüksəlməsi və müxtəlif ərazilərdə özünün iqtisadi rıçaqlarından istifadə etməklə bir sıra fərqli bölgələrə təsir etmək imkanlarının qarşısını Amerika vaxtilə daha rahat ala bilərdi. Lakin göründüyü kimi heç bir müdaxilə baş vermədi".

Politoloq hesab edir ki, uyğurlara qarşı Çin tərəfindən həyata keçirilən ciddi diskriminasiya siyasətini Amerika əsas kimi göstərə bilərdi amma bundan da istifadə etməyib: "Tayvan da ABŞ-ın Çinə qarşı təzyiq siyasətinin elementlərindən biridir. Lakin Tayvana görə ABŞ-ın Çinə hər hansı bir müdaxiləyə gedəcəyi də real görünmür. Amerikalı ekspertin təsəvvürlərinə görə, ABŞ böyük həcmli hərbi müdaxiləyə hazırlaşsa və belə bir vəziyyət realdırsa, onda unutmaq olmaz ki, Amerika belə bir prosesə tək gedə bilməz. Xüsusilə NATO müttəfiqləri ilə bu prosesdə birgə iştirak etməyə çalışacaq. Amma qeyd etməliyəm ki, artıq NATO Amerikanın kifayət qədər nəzarətindən çıxıb və NATO müttəfiqləri ilə gərgin münasibətdədir. Xatırladaq ki, NATO-nun ən böyük güclərindən biri olan Fransa prezidenti NATO haqqında "beyin ölümü keçirir" ifadəsi işlətmiş, "AUKUS" razılaşmasını 3 NATO müttəfiqinin Fransaya qarşı xəyanəti kimi qiymətləndirmişdi. Eyni zamanda, NATO-nun ikinci ən böyük hərbi gücü olan Türkiyə ilə ABŞ arasında kifayət qədər münasibətlər gərgindir və bu gün Türkiyənin üzləşdiyi iqtisadi gərginliklərin arxasında açıq şəkildə Amerikanın dayandığı da artıq ifadə olunmaqdadır. Bu mənada ABŞ müharibəyə başlayarsa, klassik NATO müttəfiqlərindən də dəstək görməyəcək".

A.Əliyev vurğulayıb ki, həmçinin, ABŞ artıq demokratik dəyərlər daşıyıcısı, müxtəlif təzyiqlərə məruz qalan, haqlının tərəfində dayanan dünya gücü statusunu artıq çoxdan itirib və artıq populist bir dövlətə çevrilməkdədir: "Bu fikrimi bir neçə misal çəkməklə təsdiqləyə bilərəm. 2008-ci ildə Gürcüstanı Rusiyaya qarşı addımlara təhrik edib, zərurət yarandıqda isə müdaxilə etməyib kənara çəkilməklə Gürcüstanı meydanda Rusiya ilə tək qoyan məhz, Amerika idi. 2014-cü ildə Ukraynanı eyni ilə Rusiya ilə münasibətləri gərginləşdirməyə təhrik edib və yenə də ehtiyac olduğu zaman Ukraynanı Rusiya ilə baş-başa qoyan məhz, Amerika və onun müttəfiqləri idi. Bu gün də eyni ilə Ukraynanı yenidən Rusiya ilə gərgin münasibətlərə təhrik edən yenə də ABŞ və onun müttəfiqləridir. Amma münasibətlər kritik həddə çatanda Amerikanın zəruri addımlar atması zərurəti yaranan da yenə də ABŞ ortaya deyil. ABŞ prezidenti Rusiya prezidenti ilə telefon danışıqlarından da məlum oldu ki, Amerika Rusiyaya qarşı Ukrayna məsələsində iqtisadi sanksiyalardan daha irəli getmək istəmir. Bu mənada artıq dünya dövlətlərində Amerikaya qarşı inamsızlıq mövcuddur. Ona görə də ABŞ-ın Çinə qarşı hərbi müdaxiləsi hazırda mümkün deyil. Digər tərəfdən ABŞ ordusu bu gün say və hazırlıq baxımından kifayət qədər geri qalır. Son illər İraqda, Əfqanıstanda, Suriyada baş verən hadisələr fonunda ABŞ ordusunun aldığı ciddi zərbələr, ABŞ cəmiyyətinin başqa ərazilərdə lazımsız yerə kütləvi itkilərə psixoloji cəhətdən hazır olmaması deməyə imkan verir ki, ABŞ belə bir müharibəyə hazır deyil. Bütün bunlar rəqibə təzyiq etmək üçün bilef xarakterli gedişlərdir. Bunu həm ABŞ-da, həm Çində kifayət qədər dərk edirlər. Eyni zamanda ABŞ-da həm də onu yaxşı dərk edirlər ki, Çin Əfqanıstan və Suriya peşmərgələri deyil. Çin ordusu kifayət qədər nizamlı və hazırlıqlı bir ordudur. ABŞ analitikləri də bu cür müharibədən məğlubiyyətlə çıxacaqlarını yaxşı dərk edirlər. Ona görə bu istiqamətdə ciddi addımların atılacağını və yaxın illər ərzində münasibətlərin münaqişəyə qədər gedib çatacağını düşünmürəm".

***Aysel Məmmədova***

# Terrorçulara qucaq açan Makron

## Yaxud dəyişməyən xislət, yoxsa saxta populizm?

***Fransa prezidenti Emmanuel Makron Brüsseldə keçirilən "Şərq Tərəfdaşlığı" sammiti çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyanla videogörüşünü müşayiət edərkən, özünün "Twitter" səhifəsində Ermənistana dəstək olacağını qeyd edib. Fransa prezidenti "Biz erməniləri heç vaxt tərk etməyəcəyik. Biz həmişə davamlı sülhün bərqərar olması üçün həll yolları axtaracağıq. Mən qarşıdan gələn bayramları sülh və humanitar sahədə nailiyyətlər dövrünə çevirməyə çağırıram"- yazıb.***



Şərh

Ancaq dekabrın 16-na keçən gecə isə Makronun vasitəçiliyi ilə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında daha bir görüş baş tutub. Fransa Prezidenti Emmanuel Makron feysbukdakı hesabında Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü ilə bağlı paylaşım edib. Qeyd edək ki, hətta o, Azərbaycan dilində status yazıb: ”Biz davamlı sülh üçün həll yolları tapmalıyıq. Dünən axşam Prezident Əliyevlə, sonra da baş nazir Paşinyanla birgə irəlilədik”, - paylaşımda bildirilib. Bu yerdə qalırsan nə deyəsən. Göründüyü kimi, bir-birindən absurd olan fikirlər və yaxud Makronun absurd bəyanatları. Makron çıxışlarında dəfələrlə vurğulayıb ki, ”Azərbaycan qoşunları Ermənistan ərazisini tərk etməlidir və tərəflər tutduqları mövqelərə qayıtmalıdırlar”, deyən Makron bildirib ki, ”mən həmçinin bütün əsirlərin azad edilməsi, humanitar təşkilatların regiona çıxışına qoyulan məhdudiyyətlərin götürülməsi zərurəti və mürəkkəb minalanmış zonalar məsələsi haqqında düşünürəm”.

Bir-birindən absurd olan bu cümlələri oxuyarkən Fransa liderinin ”soyuq duşa” ehtiyacı olduğu hiss olunur. Onun ”Azərbaycan qoşunları Ermənistan ərazisini tərk etməlidir, tərəflər tutduqları mövqelərə qayıtmalıdırlar” açıqlaması bu ölkənin liderinin nə qədər absurd nəzər nöqtəsinə malik olduğunun sübutudur. Çünki hazırda Üçtərəfli Bəyanatdan sonrakı vəziyyətə uyğun olaraq Azərbaycan və Ermənistan arasında demarkasiya və delimitasiya məsələlərinin həllini tapmalı olduğu halda, bizim qoşunlarımızın öz sərhədlərimiz daxilində sərhəd postlarını qurmasını Ermənistanın sərhədini pozaraq bu ölkənin ərazisinə daxil olmaq kimi qələmə verən fransız lider, faktiki olaraq, Azərbaycana qarşı dezinformasiya kampaniyası aparmaqdadır. Ermənistan Baş nazirinin və Xarici İşlər Nazirliyinin Azərbaycan hərbçilərinin guya bu ölkənin sərhədlərini pozması haqqında qışqırıqlarının dünyanın heç bir nöqtəsində, hətta İrəvanın hərbi-siyasi müttəfiqi sayılan Rusiya və KTMT-də ciddi qarşılanmadığı və bu mövzuda adı çəkilən tərəflərin, faktiki olaraq, Ermənistanı tənqid etmələri fonunda Fransa prezidenti Makronun mövzuya qayıtması bu siyasətçinin nəinki Azərbaycana, eyni zamanda, sərhəd məsələlərinin həllində arbitr rolunda çıxış edən və Üçtərəfli Bəyanatın qarantı olan Rusiyaya qarşı demarşı kimi də başa düşmək olar.

Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Leyla Abdullayeva Fransa liderinin ”Azərbaycan hərbçiləri Ermənistan ərazisini tərk etməlidir” bəyanatına cavabında bir daha da qeyd edib ki, Azərbaycan hərbçiləri öz doğma torpaqlarında xidmət göstərirlər: ”Təəssüf hissi ilə qeyd etmək istərdik ki, 1997-ci ildən Fransa həmsədr qismində fəaliyyət göstərsə də Fransa tərəfindən heç zaman Ermənistan qoşunlarının işğal altında olan Azərbaycan torpaqlarından çıxarılması ələqədar çağırış edilməmişdir. Baxmayaraq ki, bu BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələbi idi”.

Azərbaycan XİN Makronu fakt qarşısında qoyaraq dönüb öz davranışlarına baxmağı məsləhət görür. 30 ilə yaxın vaxt ərzində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyi, erməni hərbçilər minlərlə kv/km ərazidə qeyri-qanuni fəaliyyətlə məşğul olduğu zaman ağzına su alan Paris indi heç bir sərhəd pozuntusu olmadığı halda az qala hər həftə Bakıya qarşı gülünc bəyanatlar səsləndirir. Bu ərköyün və dünyada reytinqi ayaqlar altında olan, Fransa tarixində xalq qarşısında legitimliyi ən aşağı həddə sayılan Makron bugünkü Ermənistan torpaqlarının tarixi Azərbaycan torpaqları üzərində qurulduğunu da unutmamalıdır və burnunu bu məsələyə soxmamalıdır. Və 44 günlük Vətən Müharibəsin ilə Ermənistan qoşunları Azərbaycan ərazisindən çıxarılıb, işğala son qoyuldu. Və beləcə, ”Dağlıq Qarabağ münaqişəsi” ifadəsi tarixə qovuşduğu halda bu gün Fransa ”Dağlıq Qarabağ münaqişəsi”ni yenidən gündəmə gətirmək istəyi Ermənistanın sərsəm ritorikasını dəstəkləməkdən başqa bir şey deyil.

### Azərbaycan Prezidenti: ”Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Ümumiyyətlə, bu söz, ifadə işlədilməməlidir”

Fransa ”Dağlıq Qarabağ münaqişəsi həll olunmayıb” deyirsə, buyursun, zəhmət deyilsə, rəsmi Bakıya anlatsın ki, problem necə həll olunmalıdır. Azərbaycan Prezidenti İlham Əliyev sözügedən məsələ ilə bağlı deyib: ”Əgər dırnaqarası Dağlıq Qarabağın statusundan söhbət gedirsə, mən demişəm, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Ümumiyyətlə, bu söz, ifadə işlədilməməlidir. Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım Fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam. Bütün Qarabağa aid olan rayonlar orada birləşib. Şərqi Zəngəzur iqtisadi zonası yaradılıb. İndi Ermənistanda bu məsələ ilə bağlı isterikaya qapılırlar. Buna ehtiyac yoxdur, Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik, kiminsə siyasi maraqlarının girovuna çevirə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir - 101 il bundan əvvəl. Yəni, biz deyək ki, bu, olmayıb? Nəyə görə? Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur”.

Bəli, 44 yaşlı Emmanuel Makron Fransanın ən ziddiyyətli prezidentlərindən biri, bəlkə də ən birincisidir. Fransız siyasətçilər Makron haqqında belə deyirlər: ”O, hamı ilə dostdur, amma heç kimin dostu deyil”. İngilis siyasətçilərin də gəldiyi qənaət budur: ”Makron erməniləri müdafiə etməyə məhkum və məcburdur, onu qorxudan əsas məsələ isə odur ki, prezident kimi birtərəfli mövqeyi sonda Fransanın ATƏT-in Minsk qurpundakı həmsədrlikdən uzaqlaşdırılması, regionda təsir imkanlarının hədsiz şəkildə azalması ilə nəticələnə bilər”.

Fransız siyasətçilər hesab edirlər ki, ”Makronun Qarabağ məsələsindəki hazırkı mövqeyi onun ənənəvi və axına qarşı getmə instinkti (psixoloji durumu) və Fransanın maliyyə sistemindəki erməni dostlarının olması ilə bağlıdır”. Türkiyəli ekspertər düşünürlər ki, Makron kiçik hərəkətlərdən özünə böyük düşmənlər qazana bilmək ”qabiliyyətinə” malikdir. Türkiyə prezidenti Ərdoğanın beynəlxalq tədbirdə şəkil çəkdirən zaman Makronun zorla özünü sıraya soxması, salam vermək üçün uzatdığı əlinin havada qalması onu affekt vəziyyətinə sala biləcək qədər ”təhlükəli” haldır. Çünki Makron dövləti yox, öz hüquqlarını və oliqarxiyanın mövqeyini qoruyur. Elə sonda Makronun dediyi fikir bir daha onun xislətini göstərir: ”Biz heç vaxt erməniləri tək qoymayacağıq. Həmişə davamlı sülh üçün həll yolları axtaracağıq. Qarşıdan gələn bayramların sülh və humanitar sahədə nailiyyətlər dövrünə çevrilməsinə çağırıram”.

Bəli, bu, Makronun sifəti və xislətidir. Makronun və onun kimi ikili standartlardan çıxış edən qərəzli Qərb liderlərinin yarıtmaz mövqeyi Azərbaycanı haqq işindən yayındıra bilməyəcək. Buna əmin ola bilərsiniz!

***RƏFİQƏ KAMALQIZI***

# Erməni ombudsmanı Tatoyanın “kitabı bağlanır”

## *Onu Nikol Paşinyanın sorosçu hüquqşünası Kristina Qriqoryan əvəzləyəcək*

***Ermənistan ombudsmanı Arman Tatoyan öz təsdiqini tapmayan bir sıra olaylarla bağlı davamlı şəkildə Azərbaycanı Avropa və s. Beynəlxalq məhkəmələrinə, insan hüquqları təşkilatlarına şikayət edən, nəticədə şikayətlərində dəlillər tapılmadıqdan sonra rədd edilən şəxs kimi daha çox tanınmaqdadır.***





İstər 44 günlük Qarabağ müharibəsi zamanı, istərsə də sonrakı proseslər dönəmində ölkəmizə qarşı qarayaxma və şər-böhtan kampaniyaları aparmağa çalışan Tatoyan maraqlıdır ki, bu vaxta qədər beynəlxalq hüququn Azərbaycanın suveren ərazisi kimi tanıdığı Qarabağda qanunsuz məskunlaşdırılan və xarici ölkələrdən gətirilmiş ermənilər barədə bir kəlmə də olsun etiraflar etməyib və onu da etiraf etməyə cürəti çatmayıb ki, bu torpaqlardan zorla qovulan yüz minlərlə azərbaycanlıların hüquqları məhz onun təmsil olunduğu ölkənin hakimiyyətləri tərəfindən pozulub. Əslində, bu məsələdən təəccüb etmək də lazım deyil, atalar demişkən, it-itin ayağını basmaz...

”Vətəndaş sazişi” hakim partiyası zaman-zaman Tatoyanın hikkələrinə, tənbehlərinə, hətta təhdidlərinə məruz qalıb, məhkəmələrlə hədələnib

Bu günlərdə isə məlum olub ki, artıq hay-şivənçi erməni ombudsmanının vaxtı tükənir və 2022-ci ilin fevral ayının sonlarında o öz postunu tərk etməli olacaq. Üstəlik, Nikol Paşinyan iqtidarının da onu yenidən seçmək marağında olması inandırıcı görünmür. Çünki ”Vətəndaş sazişi” hakim partiyası da zaman-zaman Tatoyanın hikkələrinə, tənbehlərinə, hətta təhdidlərinə məruz qalıb, məhkəmələrlə hədələnib. Artıq buna da son verilir.

Parlamentin insan hüquqları və ictimai məsələlər üzrə komissiyasının iclasında çıxış edən iqtidar deputatı Vladimir Vardanyan ədliyyə nazirinin müavini Karistina Qriqoryanın namizədliyini ombidsman vəzifəsinə irəli sürüb.

Kristina Qriqoryan iki ali təhsil alıb, həm hüquqşünas, həm də şərqşünasdır, 12 il müddətində, əsasən, dövlət müəssisələrində və parlament administrasiyasında çalışıb

SİA-nın məlumatına görə, bununla bağlı armenianreport saytı yazır ki, 1981-ci ildə anadan olan Kristina Qriqoryanın iki ali təhsili var - o, həm hüquq işini, həm də şərqşünaslığı bitirib, 12 il müddətində, əsasən, dövlət müəssisələrində və parlament administrasiyasında çalışıb.

Bu arada daha bir fakt bəlli olub ki, əsasən, Soros fondunun yaratdığı təşkilatlara çalışan və adıçəkilən fond tərəfindən hakimiyyətə gətirilən Nikol Paşinyan iqtidarının təmsilçisi Kristina Qriqoryan ABŞ-ın USAİD - beynəlxalq inkişaf fondunun ”Ermənistanın parlament institutunun inkişaf imkanları” proqramında işləyib.

Beləliklə, Arman Tatonyanın necə deyərlər, ”kitabı bağlanır” və çox yəqin ki, bununla baş nazir Nikol Paşinyan siyasi səhnədə daha bir düşmən qazanmaq üzrədir.

***Rövşən RƏSULOV***

ANALİTİK

# Əli Kərimli və Avropanın potensial "siyasi mühacirləri"

*Görünür, radikal müxalifətin, xüsusilə AXCP-nin pulqabısı boşalıb və bundan məlumatlı olan Qərbin məlum dairələri dərhal Azərbaycana qarşı təzyiq vasitələrini işə salmaqdan ötrü əllərinə düşən girəvədən maksimum istifadə etmək qərarına gəliblər. Yoxsa ki, 2018-ci ildə qeyri-qanuni sahibkarlıqla məşğul olmasına, gəlirlərini dövlətdən gizlətməsinə və 2016-cı ildən başlayaraq qanunsuz yollarla əldə etdiyi qazancının 30 min ABŞ dollarını Ədliyyə Nazirliyində qeydiyyatdan keçməmiş AXCP-yə göndərdiyinə görə həbs olunan və sonrakı müddətdə ümumiyyətlə unudulan Saleh Rüstəmov birdən-birə haradan yada düşdü ki? Yaxud, üstəlik həbsindən bir neçə il sonra (?!) "Saleh bəyə azadlıq" bağıraraq Bakı şəhərinin mərkəzində siyasi artistizm nümayiş etdirməyə nə gərək var idi? Yəni buradan açıq-aydın görünür ki, bu məsələ bilavasitə (!) Qərbin anti-Azərbaycan dairələrinin birbaşa sifarişi, planı əsasında yenidən gündəmə gətirilməyə cəhd edilib.*








AZƏRBAYCAN XALQ CƏBHƏSİ PARTİYASI
AZERBAIJAN POPULAR FRONT PARTY

№ 08/06 05 fevral 2016-cı il

ARAYIŞ

Verilir, 11 mart 1985-ci il təvəllüdlü [redacted] oğluna, ondan ötrü ki, o, həqiqətən 12 may 2014-cü il tarixdən Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvüdür və hazırda partiyanın Nizami rayon şöbəsində qeydiyyatdadır.

[redacted] partiyaya üzv olduğu müddətdə fəallığı ilə seçilib, tədbirlərdə yaxından iştirak edib.

Arayış tələb olunan yerə təqdim olunmaq üçün verilir və qeyd olunanların nəzərə alınması xahiş olunur.

AXCP təşkilat şöbəsinin müdiri [redacted]

*Yaxud, icazəsiz etiraz aksiyalarında saxlanılanlar ad və soyadlarını niyə xüsusi olaraq çəkirlər?*

Yeri gəlmişkən, Saleh Rüstəmovun aclıq keçirməsi də radikal müxalifətin aldığı sifarişin tərkib hissəsi kimi qiymətləndirilə bilər. Daha dəqiq desək, bu da Avropanın bəlli dairələrinin planlarına daxil edilmiş məsələdir ki, məhz bundan sonra etiraz aksiyalarına start verilsin, qaragüruh qruplar da ən çox sevdikləri məşğuliyyətlərini - şəhərin küçələrində qışqır-bağır tamaşalarını nümayiş etdirsinlər. AXCP və Müsavat təmsilçiləri nəyi bacarmasalar da, bu işi etiraf edək ki, yaxşı bacarırlar...

### Aqil Qeybulla: "Saleh Rüstəmovun komaya düşməsi, ona gecə xüsusi yardım göstərilməsi ilə bağlı xəbərlər tam yanlışdır və əsası yoxdur"

Bu arada onu da xatırlatmaq olar ki, guya Saleh Rüstəmlinin "komaya" düşməsi ətrafındakı hay-haraylar da anlaqsız keçən ucuz teatr tamaşasının bir parçasıdır. Bunu isə məhz müxalif mövqeyi ilə seçilən, peşəcə həkim olan Aqil Qeybullanın mətbuata verdiyi açıqlamasından da anlamaq çətinlik yaratmır.

"Saleh Rüstəmovun komaya düşməsi, ona gecə xüsusi yardım göstərilməsi ilə bağlı xəbərlər tam yanlışdır və əsası yoxdur. Onun səhhəti Ədliyyə Nazirliyinin Tibb İdarəsinin həkimlərinin və mənim nəzarətim altındadır. Saleh bəylə dövlət qurumlarının separat sövdələşməsi və ona nəyinsə vəd edilməsi ilə bağlı fikirlərin də heç bir əsası yoxdur", deyə Aqil Qeybulla bildirib.

O, həmçinin qeyd edib ki, proseslər onun şahidliyi ilə baş verir. "Bütün proses mənim iştirakımla baş verib. İlk addım atılıb, aclıq dayandırılıb, qarşıda Saleh bəyin səhhətinin bərpası məsələsi durur. Dövlətin ədalətinə ümidlə deyə bilərəm ki, lütfən hadisələri qabaqlamayaq".

Göründüyü kimi, artıq müxalif mövqeli həkim Aqil Qeybulla da radikal qrupların süni səs-küylər, hay-haraylar salmalarını hədəfə alır, onları belə çirkin əməllərə yol verməməyə çağırır.



### Hələ də gəncləri öz toruna salıb onların həyatlarını zəhərləyən AXCP sədri Əli Kərimli bu dəfə Saleh Rüstəmovun ətrafında sirk tamaşası qurur

İndi isə gəlin Saleh Rüstəmovun adı ətrafında şəhərin küçələrində bar-bar bağıraraq həm də sabitliyi pozmağa cəhd edənlərin maraqlarına toxunaq.

Sirr deyil ki, artıq uzun müddətdir həm AXCP, həm də Müsavat kimi təşkilatlar siyasi mühacir biznesində ittiham olunur, onların kirli əməllərini ifşa edən çoxsaylı sənədlər, sübutlar bu gün də internet media məkanında mövcuddur.

Lakin danılmaz faktları belə həyasızcasına inkar edən Əli Kərimli və s. tipli radikal müxalifətin qondarma liderləri görünür, öz əməllərindən əl çəkmək fikrində deyillər. Xüsusilə, hələ də gəncləri öz toruna salıb onların həyatlarını zəhərləyən AXCP sədri Əli Kərimli bu dəfə Saleh Rüstəmovun ətrafında qurduğu sirk tamaşasında saxlanılanların adlarının və soyadlarının çəkilməli olması tapşırığını verib.



### Hərəsinin əlində bir smartfon, ya da kamera, əyinlərində isə sarı jurnalist jiletləri olan "jurnalistlərin" saxlanılan şəxslərdən adları və soyadlarını soruşmaları da diqqət çəkir

Burada hərəsinin əlində bir smartfon, ya da kamera, əyinlərində isə sarı jurnalist jiletləri olan, ancaq fəaliyyətlərində bir qram da olsun jurnalistikaya aid olmayan ayrı-ayrı fərdlərin saxlanılan şəxslərdən adları və soyadlarını soruşmaları da diqqət çəkir və maraq doğurur.

Niyəsini isə aşkar etmək çətin deyil: saxlanılanları əsla Saleh Rüstəmovun taleyi, yaxud AXCP-nin, Müsavatın siyasi mövqeləri maraqlandırmır, onları maraqlandıran əsas məsələ şəkil və video çəkdirmək, sonradan isə onları əllərində "əsas" tutaraq partiya sədrlərindən müəmmalı qaydada alacaqları partbilet və arayışların üzərinə əlavə etmək, sonunda isə üz tutduqları Avropa, Qərb ölkələrində "ölkəsində təzyiqlərə uğramış əzabkeş, məzlum, yazıq siyasi mühacir" statusuna yiyələnmək. Bax, budur onların əsas kirli məqsədləri!

### Azadlığa çıxdıqdan sonra isə Saleh Rüstəmov da digərləri kimi çoxdan Əli Kərimlinin "dəftərindən" silinəcək

Əli Kərimli və s. kimi bənzər siyasi manipulyantlar və spekulyantlar, eləcə də onilliklər boyunca sədarət kürsüsündən ikiəlli yapışlanlar isə "bir güllə ilə iki dovşan vurmaq" həvəsindədirlər - bir tərəfdən Qərbin sifarişlərini icra etməklə qaz vurub-qazan doldurmaq, o biri tərəfdən isə saxta "siyasi mühacir" arayışlarını sataraq ikitərəfli qazanclar əldə etmək.

Yoxsa, Saleh Rüstəmovun taleyi onların nəyinə gərəkdir ki? Zamanında Əli Kərimlinin gödənini doldurması üçün 30 min dollarını xərcləyib, indi isə lazımsız bir fiqura çevrilib. İndi isə, sadəcə, adından sui-istifadə edilən "pulkəsən maşın" rolunu oynayır. Azadlığa çıxdıqdan sonra isə Saleh Rüstəmov da digərləri kimi çoxdan Əli Kərimlinin "dəftərindən" silinəcək.

***Rövşən RƏSULOV***

TƏRS BAXIŞ TÖZƏL

# Ovladınızı düzgün tərbiyə etdiyinizdən əminsinizmi?



"Uşaqlarınızı tərbiyə etməyə çalışmayın, onsuz da sizə oxşayacaqlar, özünüzü tərbiyə edin..."

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

**Ekspertlər uşaq tərbiyəsinin əsas məqamları haqda "Səs"ə danışdılar**

Dövrümüzün ən çətin və həllində heç vaxt yekdil rəyə gəlinməyən bir problemi var- uşaq tərbiyəsi. Müasir dövrdə uşaqların tərbiyə edilməsi daha da çətinləşib. Çünki uşağın ətraf mühitlə əlaqəsi və ona kənardan təzyiqlər artıb. Bu da onun psixologiyasını formalaşdırır. Bu, multfilmlər vasitəsilə də olur, həyətdəki dostları vasitəsilə də, ailə üzvləri və yaxın qohumları vasitəsilə də. Xüsusən də, indi azyaşlı uşaqlara smartfonların alınıb verilməsi və orada nə ilə məşğul olduğuna nəzarət edilməməsi çox ciddi problemlər yaradır. Bu, hətta uşaq intiharlarınadək gətirib çıxarır. Mütəxəssislər uşaqlara, ümumiyyətlə, 16 yaşadək smartfon alınmamasını məsləhət görür, yalnız çox vacib olarsa 12-13 yaşından sonra adi telefon alına biləcəyini deyirlər. Çünki, smartfonlar uşaqların təkcə tərbiyəsinə, psixologiyasına yox, həm də fiziki sağlamlığına ciddi zərbələr vurur. Lakin indiki valideynlər bu məsləhətləri qulaqardına vurular və bir çoxu da bunun cəzasını çəkir.

**Tərbiyəyə nə vaxtdan başlanmalıdır?**

Bəzən uşağın tərbiyəsinə doğulan kimi, bəzən 5 yaşından, bəzən də 11-12 yaşından sonra başlamağın doğru olduğunu deyirlər. El arasında "uşaq hökmü, şah hökmü" adlı bir məsəl də var. İndi bütün valideynləri bir sual maraqlandırır: Uşaq tərbiyəsi neçə yaşından başlamalıdır və müasir dövrdə onu necə tərbiyə etməliyik? Psixoloq Arzu Qarayev deyir ki, uşağın tərbiyəsi hansısa yaşdan yox, artıq uşaq ana bətnində olan dövrdən başlamalıdır. Mütəxəssis bildirir ki, hamiləlik zamanı ananın yediyi qida uşağa təsir göstərdiyi kimi, ananın keçirdiyi emosional hallar, uşaqla danışması, oxuduğu kitablar, qulaq asdığı musiqi də uşaqa eyni tərzdə təsir edir.

Ekspertin dediyinə görə, tərbiyədə ilk növbədə ananın rolu böyükdür: "Birinci növbədə uşaqla ana arasında emosional ünsiyyət olur. Uşaq 1 yaşa qədər ancaq ananı tanıyır. Bu dövrdə ananın uşağa verdiyi isti emossional yaxınlıq onun normal fiziki və mənəvi inkşafında, tərbiyəsində mühüm yer tutur. Sonrakı dövrlərdə isə ailə üzvlərinin hər birinin uşağın tərbiyəsində rolu böyükdür. Uşaq valideynlərin bir-birinə qarşı və ya onların başqalarına qarşı münasibətindən örnək götürür və tərbiyə alır. Məşhur deyimdəki kimi- Uşaqlarınızı tərbiyə etməyə çalışmayın, onsuz da sizə oxşayacaqlar, özünüzü tərbiyə edin. Uşaq görsə ki, valideyn kitab oxuyur, faydalı işlər görür, onun da o işlərə meyli olacaq, əksini görsə elə də formalaşacaq".

ARAŞDIRMA

**Nənə-baba uşağın tərbiyəsini "korlayır"?**

Dövrümüzün bir çox valideyninin ortaq bir düşüncəsi var: "Uşağın tərbiyəsini nənə-baba korlayır". Hətta sırf bu səbəbdən yay tətilini nənə və babası ilə keçirmək istəyən uşaqlara ailəsi sərt qadağalar qoyur. Valideynlər düşünür ki, nənə-baba uşağın hər istəyini yerinə yetirməklə onu ərköyün və xudbin böyüdür.

Amma psixoloqun sözlərinə görə, "nənə-baba uşağın tərbiyəsini korlayır" demək düzgün deyil: "Sadəcə, böyük nəsillə cavan nəslin uşaq tərbiyəsində fikirləri müxtəlif olur və bu müxtəliflik uşağın kimin düzgün olduğunu secməsi üçün çətinlik yaradır. Amma elə nənə-babalarımız var ki, uşaq onlarda cox gözəl tərbiyə alır, milli folklorumuzu öyrənir, qədim nağılları dinləyir, müasir anaların bilmədiyi laylaları eşidir".

Ekspert deyir ki, bəzi hallarda nənə və baba nəvələrini çox sevdiyindən onlara əlinə keçən hər şeyi yedirir və nəticədə, onların sağlamlığına zərbə vururlar və ya onların hər istədiyini etməklə ərköyün böyümələrinə səbəb olurlar. Lakin bu hallarda uşağı nənə babasından aralı saxlamaq yox, nənə babaya bunun uşaq üçün zərərli olacağını izah etmək lazımdır.

**Uşağın cəzalandırma metodu necə olmalıdır?**

Pedaqoq, orta məktəb müəllimi İbrahim Cəfərov deyir ki, bu gün cəmiyyətimizdə uşaqların cəzalandırılması metodları da ürəkaçan deyil. Çünki elə valideyn var ki, övladına fiziki güc tətbiq edir, döyməklə tərbiyə etməyə çalışır. Ekspertin sözlərinə görə, tərbiyədə və cəzalandırma metodunda fiziki cəzalandırmadan söhbət gedə bilməz: "Uşağı hansısa pis əməlinə görə cəzalandırmazdan qabaq birinci növbədə həmin əməlin nəyə görə pis olmasını uşaq üçün aşılamaq lazımdır. Daha sonra onun xoşladığı və ya adət etdiyi gündəlik məşğuliyyətlərdən hansısa bir müddətə məhrum etmək lazımdır".

Ekspertin sözlərinə görə, valideyn öz sözünün üstündə durmalıdır: "Yəni, demək olmaz ki, sən daha multfilmə baxmayacaqsan. Çünki buna daimi əməl olunması mümkün deyil. Konkret cəzalandırma müddəti ərzində filmə baxmasına izin verməmək ən obyektiv cəza hesab oluna bilər. Valideynin öz sözünün üstündə dura bilməsi üçün qoyulan vaxt qısa olmalıdır və mütləq həmin vaxta əməl olunmalıdır".

Uşaqları rüşvətə öyrətməyin

Uşaq tərbiyəsindəki ən maraqlı məqamlardan biri də "rüşvət"dir. Bu rüşvət oyuncaq, şokalad, yeni paltar da ola bilər, pul da. Pedaqoq deyir ki, daha çox iştahı olmayan uşaqlara tətbiq edilən "rüşvət" sistemi əslində ona zərərdir: "Belə ki, valideyn yemək yeməyən övladına "bunu yesən yeni oyuncaq alacam" deməklə onu rüşvətə öyrədir. Əgər uşağa pis əmələ görə cəza verirsə, yaxşı əməlinə görə də mükafat verməliyik, uşaq yaxşı əməllərinə görə daha tez-tez mükafatlandırılmalıdır ki, yaxşı əməl etməyə meyilli olsun və onları həvəslə etsin. Amma bu mükafat nə olmalıdır? Mükafatlandırılma birinci növbədə tərif, gözəl söz olmalıdır. Uşağın tərbiyəsində yerində olunan tərifdən gözəl üsul yoxdur. Daha sonra xırda hədiyyələr, gəzinti və s. ola bilər. Uşağın yaxşı əməllərinə görə xırda mükafatlar etmək olar, amma valideyn uşağa birbaşa deyirsə ki, bu işi elə sənə filan şey alacam, uşağı gələcəkdə rüşvətsiz hec bir iş görməyəcəyinə öyrədir".

**Övladınızı düzgün tərbiyə etdiyinizdən əminsinizmi?**

Uşaq tərbiyəsinin ən çox müzakirə edildiyi bir cəmiyyətdə yaşayırıq və bu sahədəki çatızmazlıqlar özünü ailədə, uşaqların tərbiyəsində də büruzə verir. Belə ki, bəzi valideynlər uşağın cinsinə görə tərbiyə metodlarının tətbiq edilməsinin tərəfdarıdır. Uşağın cinsinə görə münasibət və tərbiyə metodları müxtəlifdir. Oğlan uşağını daha möhkəm, dözümlü, işə davamlı böyüməsində səy göstərilir. Qız uşağının isə zəif məxluq olduğu nəzərə ailınır və daha incə tərbiyə olunur. Mentalitetimizin xüsusiyyətləri tərbiyədə özünü göstərir.



Sonda söhbətləşdiyimiz ekspertlərdən uşağın düzgün tərbiyə üçün əsas şərtlər barədə qızıl məsləhətlər istədik. Bu da həmin məsləhətlərdən ibarət kiçik siyahımız:

* Tərbiyədə əsas rol ailədə mehribanlıqdı.
* Ata, ana, nənə, babanın tərbiyə zamanı sözləri bir olmalıdır.
* Ailə üzvlərindən biri uşağa hansısa bir şeyə qadağa qoyan zaman digər üzvlər də bunda dəstək olmalıdır.
* Uşaq qadağaların nə səbəbdən qoyulduğunu başa düşməlidir.
* Sadəcə "olmaz" deyib üstündən kecmək olmaz.
* Uşağa nəvaziş, isti münasibət göstərməkdən çəkinməyin.
* Düşünməyin ki, cox nəvaziş uşağı "qudurda" bilər.
* Uşaq ailədən nə qədər artıq dəstək, tərif, nəvaziş görsə, daha cox özündən əmin olar və həmin dəstəyi qıraqda axtarmaz.
* Uşağa daim müsbət şeylər təbliğ edilməli, onun müsbət ruhlu multfilmərə baxması, müsbət mövzulu nağıllara qulaq asması təmin edilməlidir.
* Uşağı nəzarətsiz buraxmaq olmaz və onun bütün hərəkətlərini izləyib, səhvlərini başa salmaq lazımdır.

*Lalə Mehralı*

SƏS
18 dekabr
2021-ci il



# "Liverpul" bunu bacaran yeganə İngiltərə klubudur

"Liverpul" tarixi nailiyyətə imza atıb. Qol.az "Opta Joe"yə istinadən xəbər verir ki, son olaraq İngiltərə Premyer Liqasının 17-ci turunda "Nyukasl"ı 3:1 hesabı ilə məğlub edən Mersisayd təmsilçisi ölkə çempionatı tarixində 2 min qələbə qazanan ilk klub olub.

Xatırladaq ki, Premyer Liqada ən çox qələbə qazanan digər komandalar "Arsenal" (1926) və "Everton"dur (1872).



## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN


# Azərbaycanda övladlığa götürmə qaydası dəyişir

*Azərbaycanda övladlığa götürmə qaydasına dəyişiklik təklif edilir. SİA-nın məlumatına görə, bununla bağlı Ailə Məcəlləsinə dəyişiklik olunur.*



Dəyişikliklə Məcəllənin 118.20-ci bəndi yeni redaksiyada verilir: "Uşağın övladlığa götürülməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sisteminə ötürülür".

Məcəllənin hazırkı bəndi isə belədir: "Məhkəmə uşağın övladlığa götürülməsi barədə qətnamənin qüvvəyə mindiyi gündən 3 (üç) gün müddətində bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur".

# İnsanlar niyə sosial mediadan asılıdır?

*"Sosial media günümüzün reallığıdır. Artıq ondan qurtuluş yoxdur". Bu sözləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət bildirib.*




Onun sözlərinə görə, üstəlik də təəssüflə qeyd etməliyik ki, bu, insanlar arasında asılılığa çevrilib: "Əslində isə bu asılılıq da təsadüfi deyil. Çünki insanlar bir qayda olaraq informasiya, əyləncə axtarırlar. Xüsusilə boş vaxtı bol olanlar başlarını qatmaq üçün nəyəsə ehtiyac duyurlar. Nəticə olaraq isə özlərini təbii ki, sosial medianın içində tapırlar. Sosial media olmadıqda isə əksəriyyət həmin boş vaxtı dəyərləndirib məsəl üçün roman oxuyardı, cürbəcür ədəbiyyatla maraqlanardı. Amma indi sosial media var deyə, o ədəbiyyat, o romanlar və s. arxa plana keçib. İnsanlar daha tez informasiya əldə etmək, bir-birləri ilə tez bir zamanda əlaqə yaratmaq və fikir mübadiləsi aparmağa çalışırlar. Bunun üçün də yenə də müraciət etdikləri ilk yer sosial media olur. Düzdür müsbət tərəfləri də var. Məsələn, operativ şəkildə informasiya əldə etmək olur, eyni zamanda əylənmək olur. Mənfi tərəfi isə odur ki, buradan istənilən insanlar istifadə edə bilir. Təbii olaraq hər kəs də sosial mediadan düzgün məqsədlər üçün istifadə etmir. Kimin ürəyi hansı formada, necə istəyirsə fikirlərini də o formada bildirir. Bu isə bəzən qeyri-etik ifadələrlə rastlaşmağımıza səbəb olur. Ona görə də sosial mediadan peşəkar istifadəyə üstünlük vermək lazımdır".

Ekspert sözlərinə davam edərək bildirib ki, təsadüfi, yanıltıcı paylaşımlar edən insanlarla isə dostluq dayandırılmalıdır: "Bu cür insanlardan uzaq durmaq və bizdən istifadə etməklərinin qarşısını almağa çalışmalıyıq. Bu bir çıxış yoludur. "Amma ümumilikdə qurtuluş varmı?" Bu çox çətin sualdır. Hər halda düşünürəm ki, insanlarımız sosial medianın o qədər də ciddi bir vasitə olmadığını ağıllarında saxlamalıdırlar".

**Səbinə Hüseynli**

# Qızını gözləyən məşhur aktirisa güllələndi





42 yaşlı aktrisa Tanya Mendoza, 11 yaşlı qızının futbol akademiyasından çıxmasını gözləyərkən güllələnib. SİA xarici mətbuata istinadən xəbər verir ki, 10 il əvvəl naməlum şəxslər tərəfindən qaçırılaraq döyüldükdən sonra sərbəst buraxılan aktyor, o vaxtdan bəri ölümlə hədələnir. Uşağını gözləyən Mendozaya dəfələrlə atəş açan şübhəli, əlbiri ilə birlikdə hadisə yerindən qaçıb.

Hadisə şahidlərinin polisə xəbər verməsindən sonra kampusa gələn həkimlər qadının öldüyünü təyin ediblər.

**Rüqəyya Orucova**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600